QARABAĞ AZƏRBAYCANDIR!

## Tarixə çevrilən dastan - Sarıqamış hərəkatı



6

## İlham Əliyev:

### “Erməni tərəfi danışıqlar prosesini pozur və bunun səbəbləri mənə məlumdur”



2

Azərbaycan Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibə verib

SƏS



№ 004 (6687) 11 yanvar 2023-cü il. Qiymətı 60 qəpik

# Paşinyanın tək çarəsi



7

## Ermənilərin azərbaycanlılara qarşı deportasiya və soyqırımı tarixindən



12

Bəhruz Quliyev:

### ““SƏS” qəzeti qətiyyətli və şərəfli yol keçmiş mətbuat məktəbidir”



8

### “Qərbi Azərbaycana qayıdış bu insanların haqqıdır”

9

### Repetitora hansı hallarda müraciət etmək lazımdır?



16

## Fransa “insan haqlarından” dəm vurarkən...



14

# İlham Əliyev: “Erməni tərəfi danışıqlar prosesini pozur və bunun səbəbləri mənə məlumdur”

*Azərbaycan Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibə verib*

***Dünən Azərbaycan Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibə verib. Dövlət başçısı müsahibəsində bir sıra vacib məsələlər barədə fikirlərini açıqlayıb. Azərbaycan Prezidenti diqqətə çatdırıb ki, ikinci Qarabağ müharibəsindən sonra bizim əsas vəzifəmiz şanlı hərbi Qələbəmizi siyasi müstəvidə də təsdiqləmək idi. Biz dərhal işə başladıq. Çünki yaxşı başa düşürdük ki, əgər biz siyasi sahədə bu Qələbəni təsdiqləməsək, bu Qələbəni dünya ictimaiyyətinə qəbul etdirməsək, müəyyən problemlərlə üzləşə bilərik.***



"Azərbaycan sosial dövlətdir və biz bunu sözlə yox, əməlimizlə təsdiqləyirik"

”Dərhal fəal işə başladıq və hesab edirəm ki, bu gün - artıq müharibədən iki il keçəndən sonra tam əminliklə demək olar ki, müharibənin nəticələri dünya tərəfindən qəbul edilib. Azərbaycanın haqlı olması bir daha təsdiqlənib və müharibənin sonunda yaranmış vəziyyəti biz daha da möhkəmləndirməliyik, yəni, öz mövqelərimizi daha da gücləndirməliyik. Son iki il ərzində həm beynəlxalq əlaqələr müstəvisində, həm ölkə daxilində biz istədiyimizə nail ola bilmişik”, - deyə dövlətimizin başçısı bildirib.

Dövlətimizin başçısı daha sonra qeyd edib ki, bu gün sirr deyil ki, Azərbaycan dünyada çox etibarlı və ciddi tərəfdaş kimi tanınır. Azərbaycan o ölkələrdəndir ki, öz sözünü açıq deyir, müstəqil siyasət aparır. Əlbəttə ki, bunun təməlində həm hərbi gücümüz, həm də şanlı Qələbəmiz dayanır. Dövlətimizin başçısı deyib: ”Çünki mən bunun canlı şahidiyəm ki, müharibədən sonra onsuz da Azərbaycan siyasətinə olan müsbət münasibət daha da artdı, yəni, bizə olan rəğbət daha da artdı. Çünki dünyanın siyasi elitası yaxşı başa düşür ki, biz bu Qələbəni nəyin bahasına əldə etdik, hansı risklərə getdik, hansı qüvvələrlə mübarizə aparırdıq və bu gün də aparırıq. Yəni, müharibə bitsə də, mübarizə hələ davam edir və əminəm ki, biz qalib gələcəyik. Çünki biz haqq yolundayıq və bizim həm hərbi, həm siyasi gücümüz, o cümlədən iqtisadi müstəqilliyimiz gücümüzü əlbəttə ki, artırır”.

Prezident İlham Əliyev daha sonra qeyd edib ki, Erməni tərəfi danışıqlar prosesini pozur və bunun səbəbləri mənə məlumdur. Ermənistanın qüvvəsinin olub-olmaması və bu qüvvəyə diasporun təsir göstərib-göstərməməsi məsələsinə gəldikdə düşünürəm ki, belə təsir var və kiminsə buna mane olmasına istinad etmək məsuliyyəti öz üzərindən atmaq üçün çox münasib yoldur.

Dövlətimizin başçısı deyib: ”Əgər hakimiyyət məsuldursa, o, öz hərəkətlərinə görə cavab verməlidir. Hər ölkənin, hər bir liderin öz çətinlikləri var, lakin bununla spekulyasiya etmək olmaz. Bu, necə deyərlər, evin daxili işidir, hər kəs yalnız sülh məsələsinin gündəlikdə olmasını artikulyasiya etməklə kifayətlənməyib bu işi görməli - ictimaiyyəti inandırmalı, həqiqətən sülhə can atmaq üzərində işləməlidir”.

Prezident İlham Əliyev bildirib ki, dünya postpandemiya dövrünə hələ təzə-təzə uyğunlaşır. Bir çox ölkələrdə, o cümlədən Azərbaycanda kəskin qiymət artımı müşahidə olunur. Bizim də iqtisadiyyatımız dünya iqtisadiyyatının bir parçası olduğu üçün əfsuslar olsun ki, biz də bu mənfi təsirə məruz qalmışıq.

Dövlətimizin başçısı deyib ki, dünya üçün bu böhranlı vəziyyəti biz xalqımız üçün sosial layihələrlə, sosial proqramlarla yüngülləşdirməyə çalışırıq: ”Bu yaxınlarda imzaladığım çox geniş sosial paket bir daha bunu göstərir. Yəni, müharibədən təzə çıxmış ölkə, özü də ərazisinin 20 faizi tamamilə dağılmış vəziyyətdə olan ölkə əgər sosial sahəyə bu qədər vəsait ayırırsa, deməli, bizim sosial siyasətimiz dəyişməz olaraq qalır və əlbəttə ki, bizim iqtisadi gücümüzü göstərir.

Biz bütün işləri öz hesabımıza edirik, müharibədən sonra heç kimdən yardım almamışıq. Sadəcə olaraq, iki ölkənin - Özbəkistanın və Qazaxıstanın prezidentləri Füzulidə iki məktəbin tikintisinə özləri təşəbbüs göstərmişlər. Bundan başqa biz heç bir yerdən bir manat yardım almamışıq.

”Ona görə iqtisadi müstəqillik mütləq gücləndirilməlidir və keçən il bizim ümumi daxili məhsulumuz rekord həddə çatıb. Son dəqiqləşdirilmiş məlumata görə 134 milyard manata çatıb. Bu da təxminən 80 milyard dollara bərabər olan rəqəmdir. Əlbəttə ki, həm də xarici ticarət artıb, 50 milyard dolları ötüb. Xarici ticarətin müsbət saldosu 25 milyard dollar təşkil edir. Yəni, iqtisadiyyatla məşğul olanlar bilirlər ki, bu, nə deməkdir və eyni zamanda, bizim xarici borcumuz azalıb”, - deyə dövlətimizin başçısı vurğulayıb.

Prezident İlham Əliyev daha sonar vurğulayıb ki, Azərbaycanın xarici borcu 7 milyard dollardan azdır, həm də ümumi daxili məhsula nisbətdə kəskin azalıb. Əgər keçən ilin əvvəlində xarici borcumuz ümumi daxili məhsulun 17 faizini təşkil edirdisə, keçən ilin yekunlarına görə bu, 9,5 faizə düşüb. Yəni, müqayisə üçün deyə bilərəm ki, bir çox inkişaf etmiş ölkələrdə bu, 100 faiz, hətta 130-150 faizdir.

Bunun səbəblərini izah edən dövlətimizin başçısı deyib: ”Biz iqtisadi cəhətdən müstəqilik, əgər biz indi istəsək, yenə də beynəlxalq maliyyə qurumları ilə kreditlərin cəlb edilməsi üzrə işlərə başlaya bilərik, əslində başlamışıq. Çünki həm Dünya Bankı ilə, həm Avropa Yenidənqurma və İnkişaf Bankı ilə icraatda olan layihələr demək olar ki, başa çatır. Dünyanın hər iki aparıcı maliyyə qurumunun yüksəkvəzifəli nümayəndələri keçən il Bakıda olmuşlar və aparılan müzakirələr zamanı yeni istiqamətlər müəyyən edilib. Yəni, mən tam əminliklə deyə bilərəm ki, biz limitsiz xarici kreditlərin cəlb edilməsində heç bir problem görməyəcəyik. Hələlik limitsiz xarici kreditlərin cəlb edilməsinə ehtiyac yoxdur. Ona görə iqtisadi və sosial sahə həmişə paralel getməlidir. O ölkələrdə ki, ancaq iqtisadi sahəyə diqqət verilir və sosial sahə kənarda qalır, orada insanlar iqtisadi islahatlardan çox böyük əziyyət çəkirlər. Bizim isə məqsədimiz ölkəni gücləndirmək və hər bir vətəndaşın həyatını daha da yaxşı etməkdir”.

Prezident İlham Əliyev diqqətə çatdırıb ki, inflyasiya bu gün bütün dünyada ciddi bir problemə çevrilib. Hətta inkişaf etmiş Qərb ölkələrində ki, orada adətən inflyasiya bir faizdən, yəni, bir və maksimum 1,5 faizdən yüksək olmurdu, bu gün inflyasiya 10 faizi üstələyir.

Azərbaycandakı inflyasiyanın idxal edilmiş inflyasiya adlandıran dövlətimizin başçısı deyib: ”Çünki biz əlbəttə, dünya iqtisadiyyatının bir parçası olduğumuz üçün bir çox malları idxal edirik və bu istiqamətdə də çalışırıq ki, idxalı əvəzləyən yerli istehsal daha geniş vüsət alsın. Amma hələ təbii ki, idxaldan asılıyıq. Ona görə, əgər belə demək mümkündürsə, inflyasiya Azərbaycana idxal edilib. Keçən ilin nəticələrinə görə 13,9 faiz təşkil edib. Yəni, bu idxal edilmiş inflyasiya ilə bizim mübarizə imkanlarımız kifayət qədər məhduddur.



"Bu gün Azərbaycan dünyada çox etibarlı və ciddi tərəfdaş kimi tanınır"

Minimum əməkhaqqının 15 faiz artması inflyasiyanın fəsadlarının yumşaldılmasına hesablanıb və minimum əməkhaqqı artıq 345 manata çatıb. Bu, bizi qane edir? Əlbəttə ki, yox. Amma biz imkan daxilində öz addımlarımızı atırıq. Çünki bir daha demək istəyirəm, bizim əsas xərclər istiqaməti Qarabağ və Şərqi Zəngəzuru bərpa etmək və ordu potensialımızı gücləndirməkdir. Bu iki əsas prioritet bizim üçün uzun illər prioritet kimi qalacaq”, - deyə Azərbaycan Prezidenti vurğulayıb.

Dövlətimizin başçısı qeyd edib ki, pensiyaçıların sosial təminatının yaxşılaşdırılması üçün minimum pensiya da 16,7 faiz artırıldı, 280 manata çatdı və bu proses davam etdiriləcək. Bu, müntəzəm olaraq atılan addımlardır və iqtisadi imkanlarımız artdıqca, gələcəkdə də buna oxşar addımlar atılacaq.

Prezident İlham Əliyev daha sonda bildirib ki, ünvanlı sosial yardımın verilməsi ilə bağlı çox böyük şəffaflaşdırma işi aparılıb. Əvvəlki dövrlərdə bu sahədə çox böyük pozuntulara yol verilmişdi. Ehtiyacı olmayan insanlara sosial yardım verilirdi və əlbəttə ki, bunun arxasında təmənna dayanırdı. Ehtiyacı olan insanların isə buna əli çatmırdı. Ona görə bu sahədə çox geniş təftiş işi aparılıb.

*Ardı Səh. 3*

# İlham Əliyev: "Erməni tərəfi danışıqlar prosesini pozur və bunun səbəbləri mənə məlumdur"

*Azərbaycan Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibə verib*

## "Azərbaycanın xarici borcu ümumi daxili məhsula nisbətdə kəskin azalaraq 9,5 faizə enib"

Əvvəli Səh. 2



"Bu gün 60 minə yaxın ailə dövlətdən ünvanlı sosial yardım alır və ildən-ilə bu yardımın məbləği artır. Yəni, bu il bir ailəyə düşən müavinət təqribən 460 manat səviyyəsindədir və əlbəttə ki, il ərzində artacaq, o cümlədən orta aylıq əməkhaqqı da. Biz gözləyirik ki, bu il Azərbaycanda orta aylıq əməkhaqqı 900 manatdan çox olacaq.

Beləliklə, sosial sahədə bu addımları ataraq həm ehtiyacı olan insanlara arxadayaq oluruq, eyni zamanda, biz öz siyasətimizə sadiqliyimizi göstəririk", - deyə dövlətimizin başçısı vurğulayıb.

Dövlətimizin başçısı qeyd edib ki, ötən il şəhid ailələri və müharibə əlillərinə dəstək istiqamətində də önəmli addımlar atılıb. Bu kateqoriyadan olan 1500 ailəyə dövlət tərəfindən mənzillər verilib, 2021-ci ildə isə 3 min mənzil verilmişdi. Bu il də ən azı 1500 mənzil veriləcək. Beləliklə, hələ növbədə duran bu kateqoriyadan olan insanların hamısına dövlət tərəfindən mənzillər veriləcək.

## İlham Əliyev: "Bu günədək 13 min şəhid ailəsi və müharibə əlili dövlət dəstəyindən faydalanıb"

Bu günə qədər 13 min ailənin bu imkanlardan faydalandığını diqqətə çatdıran dövlətimizin başçısı deyib: "Bu da müharibə yaşamış ölkələr arasında, belə demək mümkündürsə, bir bizim yeniliyimizdir. Çünki bir çox ölkələrdə belə praktika yoxdur. Biz bunu nə üçün edirik? Çünki bu, o ailələr qarşısında bizim mənəvi borcumuzdur və bu borcu imkan daxilində yerinə yetirməyə çalışırıq.

İkinci Qarabağ müharibəsində əlil olmuş 379 hərbçi ən müasir protezlərlə təmin edilib. Cəmi iki il keçməsinə baxmayaraq, İkinci Qarabağ müharibəsinə aid olan bu proqram tam yerinə yetirilib. Yəni, biz öz sağlamlığını itirmiş soydaşlarımıza maksimum dərəcədə kömək göstərməyə çalışırıq. Əlbəttə ki, bu, yüksək texnologiyalı protezlər olduğu üçün onlar vaxtaşırı dəyişdirilməlidir. Bütün bu proqramlar da gündəlikdədir."

Sosial sahənin çoxşaxəli olduğunu qeyd edən dövlətimizin başçısı deyib ki, buraya özünüməşğulluq proqramını da əlavə etmək olar. "Bir neçə il ərzində belə bir təşəbbüs irəli sürüldü. Çox böyük maraq doğurdu və bu gün 60 min ailə özünüməşğulluq proqramına cəlb edilib. Hətta biz beynəlxalq maliyyə institutlarını da bu proqrama cəlb etmişik. Bu, həm sosial, həm iqtisadi, həm iş yerlərini, yəni, bütün bu sahələri əhatə edən bir sahədir. Ona görə bu il də istisna olmayacaq. Çünki bir daha demək istəyirəm, Azərbaycan sosial dövlətdir və biz bunu sözlə yox, əməlimizlə təsdiqləyirik. İmkan daxilində bu il də bu proqramlar icra ediləcək", - deyə Prezident İlham Əliyev əlavə edib.

Prezident İlham Əliyev Zəngəzur Dəhlizi layihəsi barədə də fikirlərini açıqlayıb. Dövlətimizin başçısı qeyd edib ki, bizim üçün təkcə iqtisadi və nəqliyyat layihəsi deyil, strateji bir layihədir. Tam əminik ki, bu layihənin reallaşması bizim təbii hüququmuzdur.

Bu layihənin 10 noyabr 2020-ci il üçtərəfli Bəyanatında da əksini tapdığını qeyd edən dövlətimizin başçısı deyib: "Düzdür, orada "Zəngəzur dəhlizi" sözü yoxdur. Çünki "Zəngəzur dəhlizi" terminini mən ondan sonra, necə deyərlər, geosiyasi leksikona daxil etdim. Ancaq orada açıq-aydın göstərilir ki, Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat bağlantısı olmalıdır və Ermənistan bunu təmin etməlidir".

Prezident İlham Əliyev deyib ki, indi Ermənistan bundan boyun qaçırmaq istəyir, faktiki olaraq, üzərinə götürdüyü öhdəlikləri iki ildən çoxdur ki, yerinə yetirmir. "Ancaq bu, bizi dayandırmayacaq. Yəni, bizim üçün bu, strateji layihədir və təkcə bizim üçün yox, bir neçə qonşu ölkə üçün və böyük coğrafiya üçün", - deyə Azərbaycan Prezidenti vurğulayıb.

Azərbaycan Prezidenti diqqətə çatdırıb ki, Azərbaycanın qaz sahəsi azı 100 il beynəlxalq bazarlara öz ehtiyatlarını tədarük edəcək, yəni, texnologiyalar inkişaf etdikcə, hasilat imkanları artacaq. Buna görə də 2,6 trilyon kubmetr bizim potensialımızın təsdiqlənmiş minimal həcmidir.

"Qaz kəmərlərinin hamısının inşa edilməsini nəzərə alsaq, təbii ki, Avropa İttifaqı ilə biz tədarükün artırılmasını hədəfləmişik. Bundan ötrü mövcud qaz kəmərlərinin genişləndirilməsi zəruridir. Ona görə ki, həm TANAP, həm də TAP kəmərləri bizim kontrakt bağladığımız həcmlər üçün nəzərdə tutulub. Biz belə qısa perspektivdə Avropaya tədarükün iki dəfə artırılmasına ehtiyac olacağını nəzərə almamışıq. Yəni, xanım Ursula Fon der Lyayen ilə imzalanmış sənəddə məhz bu məqam nəzərdə tutulur", - deyə dövlətimizin başçısı bildirib.

Prezident İlham Əliyev deyib ki, bütövlükdə bu il 24 milyard kubmetrə yaxın qaz ixracı gözlənilir: "Buna görə də biz qaz bazarında, o cümlədən Avropa bazarında artıq ciddi aktora çevrilirik. Artıq indi TANAP-ın və TAP-ın buraxıcılıq qabiliyyətinin iki dəfə artırılması barədə düşünürük".

## "Bütövlükdə bu il 24 milyard kubmetrə yaxın qaz ixracı gözlənilir"

Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində söyləyib ki, bizim komando qüvvələrimiz artıq tam formalaşıb, çox böyük qüvvəyə çevrilib və bu proses davam etdirilir. Yeni komando qüvvələri yaradılacaq. Onların sayı daha da artacaq. Xüsusi Təyinatlı Qüvvələrimizin də sayını ən azı iki dəfə artırmışıq və artıracağıq. O cümlədən bütün təchizat ən yüksək səviyyədə təmin edilir. Dövlətimizin başçısı qeyd edib ki, Sərhəd Xidmətinin xüsusi təyinatlılarının sayı artırılıb, Daxili Qoşunların, Dövlət Təhlükəsizlik Xidmətinin, Xarici Kəşfiyyat Xidmətinin xüsusi təyinatlıları, dəstələri, qrupları yaradılıb.

"Dəniz piyadalarının sayını bir neçə dəfə artırmışıq. Naxçıvan Əlahiddə Ordunun xüsusi təyinatlılarının sayını artırmışıq. Yəni, onun sayını mən indi deyə bilmərəm, çünki hesab edirəm ki, bu, düzgün olmaz. Bununla paralel olaraq, onların sayı hələ artır. Biz hələ qarşıya qoyduğumuz hədəfə çatmamışıq. Biz artıq elə bir qüvvə yaratmışıq və yaradacağıq ki, yəni, bununla hesablaşmamaq özünəqəsd kimi sayılmalıdır.

Biz Ermənistanla məsələni həll etmişik. Əminəm ki, üçüncü müharibə olmayacaq. Amma təhdidlər aradan qalxmayıb, müharibədən sonra yeni təhdidlərlə üzləşmişik."

Dövlətimizin başçısı deyib: "Bu təhdidlərə sinə gərmək asan məsələ deyil - həm iradə olmalıdır, həm də ki, özündə əminlik olmalıdır. Biz heç vaxt avantüraya getməmişik və getməyəcəyik. Əgər bu təxribatlara qarşı biz, necə deyərlər, çox sarsıdıcı şapalaq vurmuşuqsa, deməli bu, sadəcə olaraq, təbliğat deyil, özümüzdə güc hiss edirik. Hər kəs bunu bilməlidir ki, bizimlə heç kim zarafat etməsin. Biz bunu müharibədən dərhal sonra başlamışıq. Çünki bilirdik ki, dünyanın gələcəyini bu, müəyyən edəcək".

Prezident qeyd edib ki, Rusiya-Ukrayna müharibəsindən sonra hər kəs bunu edir. Ordu quruculuğuna ümumiyyətlə fikir verməyən Avropanın ən böyük ölkələri indi ordularını yaradırlar. "İndi vahid Avropa ordusu haqqında danışmağa başlayıblar. İndi hərbi təyinatlı məhsulları buraxmağa başlayıblar, yaxud da ki, genişləndirirlər. Biz buna nə vaxtdan başlamışıq? Artıq 15 ildir. Onu da bildirməliyəm ki, biz əsas Türkiyə və İsrail şirkətləri ilə, digər ölkələrin şirkətləri ilə yeni kontraktlar bağlamışıq, eyni zamanda, yerli istehsalı genişləndirmək üçün bir neçə aparıcı şirkətlə indi danışıqların son mərhələsindəyik", - deyə Prezident İlham Əliyev bildirib.



# MÜZƏFFƏR, QALİB XALQIN QALİB İDMANÇILARI

Bu gün Azərbaycan qazandığı idman ölkəsi statusunu qoruyub saxlayır. Müxtəlif idman növlərini əhatə edən önəmli beynəlxalq idman yarışlarına və irimiqyaslı tədbirlərə ev sahibliyi etməsi, eləcə də beynəlxalq yarışlarda idmançılarımızın iştirakı, əldə etdiyi uğurlar bunu deməyə əsas verir. Heç şübhəsiz ki, uğurların təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan siyasi kursla bağlıdır. Belə ki, 1993-cü ildə Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan bütün sahələrdə olduğu kimi, idman sahəsində də uğurlar əldə olundu. Bu gün isə, bu siyasət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən layiqincə davam etdirilir.Yenicə qədəm qoyduğumuz 2023-cü ilin ilk günündən uğurların şahidi oluruq. Belə ki, yanvarın 9-da 2022-ci ilin idman yekunlarına həsr olunan görüş bir daha Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyevin idmanın inkişafına və yetişməkdə olan gənc nəslə göstərdiyi xüsusi diqqət və qayğısının bariz nümunəsidir.

## BİZİM HƏR BİRİMİZ DƏ ÖZ SAHƏMİZDƏ, ÖZ FƏALİYYƏTİMİZDƏ BU MÜQƏDDƏS ZƏFƏRƏ LAYİQ OLMALIYIQ

Bu gün idmançılarımız Müzəffər Azərbaycan xalqını təmsil edirlər. Onlar Qalib ölkənin idmançıları olaraq Azərbaycan dövlət bayrağını qaldırırlar. Həmçinin, idman nailiyyətləri təkcə ölkəmizi dünyada təbliğ etmir, gücümüzü göstərmir, eyni zamanda, cəmiyyətdə vətənpərvərlik hisslərini gücləndirir. Belə ki, tarixi qələbəmizlə tamamlanan 44 günlük Vətən müharibəsində Azərbaycan gənclərinin necə böyük ruhla, əzmlə cəbhəyə can atdıqlarına hər birimiz şahidlik etdik. Məhz vətənpərvərlik, Vətənə olan sədaqət, fədakarlıq bizi Qarabağın azad olunması uğrunda müharibədə irəliyə aparırdı. Yanvarın 9-da 2022-ci ilin idman yekunlarına həsr olunan görüşdə də dövlət başçısı bir daha gənc nəslin həm döyüş meydanında, həm də idman arenalarında ölkəmizin bayrağını qaldırmasını alqışlayaraq bildirdi ki, biz gələcək nəsli vətənpərvərlik ruhunda tərbiyə etmişik və edəcəyik: "Biz gələcək nəsli də vətənpərvərlik ruhunda tərbiyə edəcəyik, necə ki, bunu həmişə etmişik və elə gözəl gənc nəsil yetişdirmişik ki, həm idman arenalarında ölkəmizin bayrağını qaldırır, həm də döyüş meydanında. İkinci Qarabağ müharibəsində iştirak edənlərin mütləq əksəriyyəti gənclər idi - bizim siyasətimiz əsasında yetişən, həm cəmiyyətdə, həm də ailələrdə gözəl tərbiyə alan gənclər idi. Bu amil əlbəttə ki, bütün sahələrdə özünü göstərir. Yəni, artıq iki ildən çoxdur ki, xalqımız müzəffər xalq kimi yaşayır və bu qürurverici amil bizimlə bundan sonra əbədi olacaq. Sadəcə olaraq, bizim hər birimiz də öz sahəmizdə, öz fəaliyyətimizdə bu müqəddəs Zəfərə layiq olmalıyıq. Əminəm ki, indi idmançılarımız beynəlxalq yarışlarda iştirak edərkən onlar tamamilə başqa bir həvəslə, hətta başqa bir hərəkətlə çıxış edirlər və bizim müzəffər xalq olmağımızın həqiqətini bir daha təsdiqləyirlər".

## HƏR İL OLDUĞU KİMİ, KEÇƏN İL DƏ AZƏRBAYCAN İDMANI ÜÇÜN UĞURLU İL OLUB

Prezident İlham Əliyev 2022-ci ilin idman yekunlarına həsr olunan tədbirdəki çıxışında söyləyib ki, hər il olduğu kimi, keçən il də Azərbaycan idmanı üçün uğurlu il olub. Bütövlükdə ölkə miqyasında görülmüş işlərə yüksək qiymət vermək olar. Ötən ilin əvvəlində qarşıya qoyulan bütün vəzifələrin icra edildiyini bildirən dövlətimizin başçısı deyib: "Azərbaycanın dinamik inkişafı təmin olundu. İdman da həyatımızın tərkib hissəsi olduğu üçün əlbəttə ki, ümumi tendensiya çərçivəsində inkişaf etmişdir. Bunu həm idmançılarımızın qələbələri göstərir, eyni zamanda, ölkəmizdə keçirilmiş müxtəlif beynəlxalq yarışlar Azərbaycanı bir daha idman ölkəsi kimi təsdiqləyir. Bütövlükdə son illərdə aparılan siyasət bu gün öz gözəl nəticələrini verməkdədir". Prezident İlham Əliyev çıxışı zamanı söyləyib ki, idmançılarımız beynəlxalq yarışlarda 800-dən çox medal qazanıblar, onlardan 300-ə yaxını qızıl medaldır.Ötənilki nəticələri böyük nailiyyət adlandıran dövlətimizin başçısı deyib ki, dünyada idman sahəsində rəqabət artır, yeni idman ölkələri meydana çıxır və hər il yüksək nəticələr göstərmək, öz gücünü təsdiqləmək asan məsələ deyil: "Dünya, Avropa çempionatlarında idmançılarımız ölkəmizi ləyaqətlə təmsil etmişlər. Beynəlxalq yarışlar arasında xüsusilə V İslam Həmrəyliyi Oyunlarını qeyd etmək istərdim. Bildiyiniz kimi, 5 il bundan əvvəl Bakıda keçirilmiş İslam Həmrəyliyi Oyunlarında Azərbaycan komanda hesabında birinci olmuşdur. Bu, tarixi qələbə idi və bu dəfə Türkiyənin Konya şəhərində 56 ölkə arasında idmançılarımız 99 medalla 4-cü yerə layiq görülmüşlər. Bu, bir daha Azərbaycanın idman sahəsindəki uğurlarını təsdiqləyir".

## GƏNC İDMANÇILARIN HAZIRLANMASI MÜTƏŞƏKKİL QAYDADA TƏMİN EDİLMƏLİDİR

Son 19 illik prezidentlik fəaliyyəti dövründə dövlət başçımız İlham Əliyev idmançılarla mütəmadi görüşü bir daha idmananın inkişafına və idmançılarımıza dövlət qayğısının reallığıdır: "Çünki 5 il əvvəl Bakıda iştirak etmiş idmançılarımızın bir çoxu Konyada İslam Həmrəyliyi Oyunlarında iştirak etmirdi. Beləliklə, nəsillər dəyişir, ancaq uğurlarımız sabit qalır". Dövlətimizin başçısı qeyd edib ki, burada da inkişaf və uğur görürük, nəsillər dəyişdikcə görkəmli idmançılarımızın təcrübəsi sanki gənc idmançılara təhvil verilir. Yəni, Azərbaycanda yetişən gənc idmançılar bizim idman şöhrətimizi bundan sonra da yüksəklərdə saxlayacaqlar və bu, daimi proses olmalıdır.Gənc idmançıların hazırlanmasının mütəşəkkil qaydada təmin edilməli olduğunu vurğulayan Azərbaycan Prezidenti deyib: "Bu sahədə son vaxtlar daha məqsədyönlü fəaliyyət də göz önündədir, xüsusilə seleksiya işləri. Bölgələrdə keçirilmiş çoxsaylı tədbirlər həm seleksiya işləri, həm də gəncləri, uşaqları, yeniyetmələri idman bölmələrinə cəlb etmək üçün daha böyük imkanlar yaradacaq".

## GÖRKƏMLİ İDMANÇILARIMIZIN UĞURLARI BÜTÜN GƏNC İDMANÇILAR ÜÇÜN ÖRNƏK OLMALIDIR

Dövlət başçısı son bir neçə il ərzində bütün ölkə üzrə müxtəlif yarışların keçirildiyini deyərək Gənclər və idman nazirliyinə tapşırığını da verdi: "Gənclər və idman naziri qarşısında qoyulan vəzifələrdən biri də məhz bu idi ki, bölgələrdə idman canlansın və bir çox yarışlar keçirilsin"."Bu siyasət həm idman uğurlarımızı şərtləndirəcək, eyni zamanda, gənclər, yeniyetmələr, uşaqlar gənc, uşaqlıq yaşlarından idmana cəlb ediləcək və bunun onların tərbiyəsi üçün çox böyük əhəmiyyəti var. Çünki idman həm fiziki gücdür, həm də özündə fiziki güc hiss edən hər bir insan adətən mənəvi cəhətdən də sağlam olur. Bizim görkəmli idmançılarımızın uğurları və nümunəsi bütün gənc idmançılar üçün örnək olmalıdır. Çünki bizim idmançılarımız həyatda, cəmiyyətdə, məişətdə də özlərini ləyaqətlə aparırlar və idman arenalarında qazanılmış uğurları adi həyatda da öz hərəkətləri ilə təsdiqləyirlər. Beləliklə, gənclərdə, uşaqlarda idmanla məşğul olmaq, görkəmli idmançılara oxşamaq həvəsi daha da böyük olur", - deyə dövlətimizin başçısı qeyd edib.İdmana dövlət dəstəyinin xüsusi əhəmiyyət daşıdığını diqqətə çatdıran Prezident İlham Əliyev deyib: "Biz bunu Azərbaycanın timsalında görmüşük ki, idmana, idmançılara diqqət olan yerdə, qayğı olan yerdə, hörmət olan yerdə, əlbəttə, nəticələr də olacaq".

## 2023-CÜ İL YAY OLİMPİYA OYUNLARINA HAZIRLIQ ÜÇÜN HƏLLEDİCİ İL OLACAQ

Prezident İlham Əliyev 2022-ci ilin idman yekunlarına həsr olunan tədbirdəki çıxışında söyləyib ki, idman hər bir ölkənin ictimai həyatının önəmli bir hissəsidir və bəzi ölkələrdə, eləcə də Azərbaycanda bu, prioritet sayılır: "Hesab edirəm ki, biz düzgün yoldayıq. Çünki sağlam həyat tərzinin təbliğ edilməsi hər bir ölkə üçün önəmli olmalıdır".Bu gün idmanla məşğul olmaq üçün bütün imkanların olduğunu bildirən dövlətimizin başçısı deyib: "Bölgələrdə 50-yə yaxın Olimpiya İdman Kompleksi yaradılmışdır, bu proses davam etdirilir. Eyni zamanda, biz Bakı şəhərində ən mötəbər idman yarışlarını qəbul etmişik və yeni yarışları qəbul edəcəyik. Ölkəmizdə həm dünya, həm Avropa çempionatları keçiriləcək, Olimpiya Oyunlarının təsnifat turnirləri də əvvəllər keçirilmişdir, gələcəkdə də bu, istisna deyil".

## AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ BEYNƏLXALQ İDMAN YARIŞLARININ KEÇİRİLMƏSİNİN BÖYÜK TARİXİ ƏHƏMİYYƏTİ VAR

"Azad edilmiş ərazilərdə keçən il bir neçə beynəlxalq idman yarışı keçirilmişdir. Bunun çox böyük tarixi əhəmiyyəti var. Çünki azad edilmiş ərazilər indi canlanır, həyat qayıdır, insanlar qayıdır". Bu fikri Prezident İlham Əliyev 2022-ci ilin idman yekunlarına həsr olunan tədbirdəki çıxışında səsləndirib. Dövlətimizin başçısı onu da qeyd edib ki, tarixi Zəfərimizdən dərhal sonra azad edilmiş torpaqlarda genişmiqyaslı quruculuq-bərpa işlərinə başlamışıq və o bölgələrdə beynəlxalq idman yarışlarının keçirilməsinin çox böyük rəmzi mənası var: "Şuşada beynəlxalq şahmat yarışı, Suqovuşanda, Suqovuşan gölündə beynəlxalq avarçəkmə yarışı keçirilmişdir. Zəngilanın Ağalı kəndinin ətrafında triatlon üzrə yarış keçirilmişdir. Mən bunu çox yüksək qiymətləndirirəm və bu il də bu işlər davam etdirilməlidir". Azad edilmiş şəhərlərin hər birinin Baş planında idman obyektlərinin yaradılmasının nəzərdə tutulduğunu bildirən Azərbaycan Prezidenti diqqətə çatdırıb ki, Ağdamın məşhur "İmarət" stadionunun yeni layihəsi işlənilir. Stadion yenidən qurulacaq, eyni zamanda, onun yanında böyük Olimpiya İdman Kompleksi yaradılacaq. Keçən il Ağdamın Eyvazxanbəyli kəndində Qarabağ Atçılıq Kompleksinin təməli qoyulub.Bəli, Azərbaycan idmanının yüksəlişi həm də dövlətimizin yüksəlişi deməkdir, çünki bayrağımız ucaldıqda, dövlətimizin nüfuzu daha yüksək zirvələrə doğru ucalır. Çünki idmanımızdakı nailiyyətlər qalibiyyət simvolumuzun təzahürüdür. Dövlət başçımızın söylədiyi kimi: "İdmançılarımız beynəlxalq yarışlarda iştirak edərkən onlar tamamilə başqa bir həvəslə, hətta başqa bir hərəkətlə çıxış edirlər və bizim müzəffər xalq olmağımızın həqiqətini bir daha təsdiqləyirlər".

**RƏFİQƏ KAMALQIZI**

# ““Səs” müstəqil mətbuatımızın ilk qaranquşlarından sayılır”

**Yanvarın 11-də Azərbaycan mətbuatının tarixində xüsusi yeri olan ”Səs” qəzetinin 32 yaşı tamam olur. Hələ Sovet dövründən fəaliyyətə başlayan ”Səs” qəzetinin yaranma zərurəti və keçdiyi yolu necə xarakterizə etmək olar? Ötən 31 ildə qəzet öz fəaliyyətini necə qurub, cəmiyyətdə hansı imici qazanıb? SİA mövzu ilə bağlı media nümayəndələri arasında sorğu keçirib.**

**Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid:** ””Səs” qəzetinin ad gününü təbrik edirəm. Bu qəzet ictimai fikirdə öz stabil mövqeyini qoruyub saxlayan bir mətbuat orqanıdır.






Son illərdə ”Səs” qəzeti həm də müasir texnologiyaların inkişafı sahəsində, yeni medianın yaranması istiqamətində geridə qalmamış, müxtəlif sosial səhifələr, ”SƏS TV” və ”Səs İnformasiya Agentliyi” onun bazasında düşüncəsinə, jurnalistikaya münasibətinə uyğun olaraq yaranıb. Bütün bunlar bu gün də çox böyük maraqla qarşılanır.

Mən, ”Səs” qəzetinin yubileyini bir daha təbrik edir, orada çalışan bütün istedadlı jurnalistləri müasir texnologiyaların inkişafı istiqamətində daha çevik, obyektiv və operativ olmağa çağırıram. Uğurlar arzu edirəm”.

**Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin üzvü Azər Həsrət:** ””Səs” qəzeti



və bütövlükdə SƏS MEDİA QRUP ailəsi çağdaş Azərbaycan mediası içində özünəməxsus yeri, rolu və uğurları olan bir media vahididir. Aradan keçən 32 il ərzində ”Səs” daim diqqət mərkəzində olub. Şəxsən mən özüm medianın içində olan birisi kimi bunu söyləyirəm. Yəni, Azərbaycanın ictimai-siyasi həyatında baş verən elə bir proses yoxdur ki, ”Səs” onun işıqlandırılmasına, təhlil edilməsinə, cəmiyyətin maarifləndirilməsindəki roluna görə geridə qalmış olsun.

”Səs” faktiki olaraq çağdaş Azərbaycan ictimai-siyasi həyatının salnaməsi rolunda çıxış edib. Mən, həmkarlarımı təbrik edir, onlara uzun və faydalı fəaliyyətlərində müvəffəqiyyətlər arzu edirəm. Biz həmişə istəmişik və bundan sonra da istəyəcəyik ki, məhz media cameəsində özünəməxsus yeri olan media qurumlarının sayı çox olsun. Arzu edirəm ki, ”Səs” də həmişə bu sıralarda olsun”.

**Respublikanın Əməkdar Mədəniyyət İşçisi, rejissor Hikmət Yaqubov:** ””Səs” qəzeti 1991-ci ildə işıq üzü görüb və bu zaman Azərbaycanda o qədər çox mətbuat orqanı yox idi. ”Səs” qəzeti əlbəəl gəzən qəzetlərdən idi. Mən xatırlayıram ki, o vaxt tələbə idim və bu qəzeti əl-əl axtarırdılar.



”Səs” qəzeti həmin dövrdə ictimai-siyasi fikrin formalaşmasında çox böyük nüfuzu olan ədalətli qəzetlərdən sayılırdı. Bu qəzetdə nüfuzlu insanlar çalışıb. Ən əsası isə Ümummilli Lider Heydər Əliyevin orada fikirləri həmişə yer alıb. Ona görə də bu qəzet böyük nüfuza sahib idi.

Qəzet hər bir xalqın güzgüsüdür. Bu gün də ”Səs” qəzetinin işıq üzü görməsinə çox sevinirəm. Burada çox maraqlı yazılar mövcuddur. Hərdən qəzeti alıb oxuyuram.

Qəzet elə bir vasitədir ki, səni öz mühitinə aparır. ”Səs” qəzeti mənim üçün çox doğmadır. İlk olaraq ”Səs” qəzetinin baş redaktoru Bəhruz Quliyev olmaqla bütün kollektivi səmimi qəlbdən təbrik edirəm”.

**Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İnformasiya Təminatı və Sənədlərlə İş şöbəsinin müdiri, jurnalist Yadigar Məmmədli:** ””Səs” qəzeti 32 il bundan öncə



yaranıb. Xatırladım ki, 1990-cı illərin əvvəlləri ən çətin dövr idi. Yəni, Azərbaycan hələ müstəqillik qazanmamışdı. Belə bir təzadlı dövrdə ”Səs” media aləminə ayaq açdı. Üzərindən 32 ilə yaxın vaxt keçib. Təxminən 7 minə yaxın qəzetin sayı nəşr olunub. Bunlar möhtəşəm rəqəmlərdir. Bunlar yanlız bir qəzetin tarixində deyil, həm də müstəqil Azərbaycanın mətbuat tarixində əlamətdar hadisədir.

”Səs” həm öz dizaynı, həm də oradakı yazıların təqdimatı ilə fərqlənən bir qəzetdir. ”Səs” hər zaman fərqlənib və Azərbaycan mediasına səs salıb.

Mən, ”Səs” qəzetini daim izləyərək o nəticəyə gəlmişəm ki, oradakı yazı müəlliflərinin məsələlərə öz fərdi yanaşması olur. Orada çox parlaq imzalar fəaliyyət göstərir. ”Səs” azsaylı qəzetlərdəndir ki, sıradan çıxmadı və qəzetçiliyi davam etdirdi. Onun PDF variantı da var. Həmçinin, yanında ”Səs TV” və ”Səs” İnformasiya Agentliyi yarandı. Bütün bunlar onu göstərir ki, ”Səs” qəzeti müəyyən tələblərlə ayaqlaşa bilir.

Bu gün ”Səs” qəzetinin siması dəyişib. Belə ki, artıq bəzi səhifələri rəngli çap olunur. Bunlar onu göstərir ki, 32 il fəaliyyət göstərən ”Səs” dinamik inkişaf edib və öz xəttini qoruyub saxlayıb. Mən ”Səs” qəzetinin rəhbəri Bəhruz Quliyev başda olmaqla, bütün kollektivi təbrik edir, işlərində uğurlar arzu edirəm”.

**Jurnalist Araşdırmaları Mərkəzinin sədri, Yenisabah.az saytının baş redaktoru Seymur Verdizadə:** ””Səs” müstəqil mətbuatımızın ilk qaranquşlarından sayılır. 32 il mətbuat tarixi üçün böyük zaman kəsiyidir. Ciddi rəqabət mühitində 32 il meydanda qal-



maq, yazıb-yaratmaq böyük uğurdur. Bu münasibətlə bütün ”Səs”çiləri təbrik edirəm. ”Səs”iniz həmişə səslər içində seçilsin, tirajınız yüksək olsun.

”Səs” qəzeti son vaxtlar ən çox əməkdaşlıq etdiyim mətbuat orqanlarındandır. ”Səs”çilər ən müxtəlif düşüncələrə hörmətlə yanaşmağı, müsahibin fikirlərini olduğu kimi, qərəzsiz təqdim etməyi bacarırlar. Fikir plüralizmi inkişafın rəhnidir. ”Səs” bu müxtəlifliyi qorumağa can atır. Bir mətbu orqanda fərqli səslərin eşidilməsi həmin nəşrin uğurudur.

”Səs”də ciddi faktlara söykənən tənqidi yazıların sayının artması sevindiricidir. Mətbuatın işi həm də nöqsanları göstərməkdir. Ciddi jurnalist araşdırması əsasında hazırlanmış tənqidi yazılar cəmiyyətin arınmasına, durulmasına, sağlam mənəvi ab-havanın yaranmasına xidmət edir. İnanıram ki, ”Səs” bundan sonra da peşəkar prinsiplərə sadiq qalacaq”.

**JEM sədri Ceyhun Musaoğlu:** ””Səs” qəzeti demək olar ki, yarandığı gündən bizim, yəni jurnalistlərin stolüstü qəzeti olub. Bu mənada ki, mən müxtəlif qəzetlərdə müxbir işləmişəm, şöbə müdiri, redaktor və baş redaktorun müavini olmuşam. Yəni, bir çox vəzifələrdə çalışmışam. Amma bütün bunların hamısını birləşdirsən bir müxbirlik olub. Təbii ki, o dövrdə internet saytları, ümumiyyətlə, internet dünyası olmadığı üçün biz qəzetlərdən mövzular götürərdik. Digər qəzetlər də bizim səhər çıxacaq qəzetimizdən mövzular götürərdi. Bütün qəzetlər bir-birindən mövzular götürərdi və mövzuları daha da genişləndirər, daha da fərqli şəkildə işıq-



landırardı.

O dövrdə müxtəlif istiqamətli qəzetlər var idi və xüsusən 3 yerə bölünərdi: iqtidaryönlü, müxalifət və müstəqil qəzetlər. İqtidar qəzetləri deyəndə biz birbaşa Yeni Azərbaycan Partiyasına yaxın olan və partiyanın təbliğatını aparan qəzetləri nəzərdə tuturduq. Onların içərisində təbii ki, ”Səs” qəzeti də xüsusi olaraq iqtidaryönlü qəzeti kimi hesab olunurdu və biz ”Səs” qəzetini çox böyük həvəslə oxuyur, həvəslə araşdırır, oradakı mövzuları götürüb o mövzular üzərində işləyir və o mövzulardan yeni mövzular çıxardırdıq. Bir sözlə, ”Səs” qəzeti bizim üçün doğrudan da səs salan bir qəzet idi.

Sonra illər keçdi, ”Səs” qəzeti daha da inkişaf etdi, genişləndi, kollektivi daha da böyüdü. Sonra da ”Səs” onlayn televiziyası yarandı və onun kollektivi də bizə doğmalaşmağa başladı. Çünki orada işləyən həmkarlarımızın əksəriyyəti ilə bir yerdə işləmişdik və yaxud da sonra bir yerdə işləyəcəkdik.

”Səs” qəzeti böyük bir ailə qura bildi və o ailənin hər bir üzvü şəxsən mənə çox əzizdir. Mən Azərbaycan jurnalistikasında demək olar hamı ilə dostam, yoldaşam, hamıya mənim hörmətim var, hamının da mənə hörməti var. Amma ”Səs” qəzetinə, əməkdaşlarına, baş redaktoruna və hər bir əməkdaşına mənim xüsusi hörmətim, rəğbətim var. Onlar doğrudan da məsələlərə çox peşəkar yanaşırlar. Onlar bir insan və xarakter sahibi olaraq əsl jurnalist kimi davranırlar və ona görə də mən çox sevinirəm ki, ”Səs” qəzeti 32 yaşına qədər gəlib çıxa bilib, o çətin dönəmlərdən, çox ağır yollardan keçib, amma gəlib çıxa bilib, sağ-salamat gəlib çıxa bilib. ”Səs” həmişə sağ-salamat olsun, yolu həmişə açıq olsun, səsi həmişə ucalardan gəlsin, səsi həmişə eşidilsin və o səs oxucuda xoş təəssürat yaratsın”.

***Ayşən Vəli***



# Tarixə çevrilən dastan - Sarıqamış hərəkatı

*90 mindən çox mehmetciyin buz adama çevrildiyi şaxtalı qış günü*

**Yaddaşlarda, salnamələrdə iz salan və zaman-zaman xatırlanan tarixi hadisə - Sarıqamış hərəkatı. İnsanın düşüncəsinə, silinməz daş yaddaşlara sarsıdıcı olay kimi həkk olunan bu hərəkat minlərlə insanın həyatına son qoydu. Həmin hadisədən bizi 108 illik zaman ayırır. Bir əsr, səkkiz il. Qısa bir tarix deyil.**

90 mindən çox əsgərin donub şaxtalı çöllərdə buz adama çevrilməsi bir dastandır. Bəzən insan əqli, belə bir hadisənin tarixdə yaşamasına inana bilmir, tarix isə həqiqəti yazır. Tarixin yazıya aldığı acı və tükürpədici səhifələri vərəqlənir. Rusiya imperiyası ilə Osmanlı imperiyası arasında 1914-cü il dekabr ayından 1915-ci il yanvar ayına qədər Sarıqamış bölgəsində baş verən hərbi münaqişə tarixin yeni səhifəsinə yazıldı. Tarixi mənbələrdən məlumdur ki, Birinci Dünya Müharibəsində Türkiyənin düşdüyü vəziyyətdən yararlanan Rusiya Osmanlıya müharibə elan edir. Cənub-Şərqi Anadolunun azad olunması üçün Osmanlı dövləti yeni - 9-cu Qafqaz cəbhəsini yaratmalı oldu. Hərbi nazir Ənvər Paşanın hazırladığı plana əsasən, Sarıqamışa iki istiqamətdən - Sarıqamış və Allahuəkbər dağlarından hücum edərək Qafqazda rus qoşunlarına zərbə endirməli idi. 1915-ci ilin əvvəllərində "Turan fatehi", "Sarıqamış fatehi" olmaq arzusu ilə alışıb-yanan Ənvər paşa qışın həddən artıq soyuq olmasını, əsgərlərin isti paltar və ərzaqla yaxşı təmin olunmamasını nəzərə almadan Qafqazda hərbi əməliyyatların başlamasına əmr verir. Vəziyyət elə bir vaxta təsadüf edir ki, Osmanlı ordusuna ərzaq, döyüş sursatı və pal-paltar gətirən gəmiləri çar ordusu Qara dənizin sularında batırır. Əlbəttə ki, vəziyyətin son dərəcə ağır olduğunu görən tədbirli və güclü sərkərdə istefada olan Hasan İzzət paşa tələbəsi - 34 yaşlı Ənvər paşaya əl saxlamağı, bir az gözləməyi məsləhət görür: "Qara qışın ən sərt çağıdır. İndi hərəkət etmək göz görəsi faciəyə getməkdir. Qış şiddətini azaltsın, yollar açılsın, biz də hazırlıqlarımızı bir az artıraq, ondan sonra düşmənə həddini bildirərik". Lakin Ənvər paşa razılaşmır. Tamamən qarla qapalı, çox yüksək dağlıq və yolsuz bir ərazidə, o günün şərtləri ilə qış təchizatından məhrum piyada üçün bu yürüş çox riskli idi. Amma Ənvər Paşanın ruslara olan sonsuz nifrəti onun bu böyük riski nəzərə almasına mane oldu. Beləcə, həm silah-sursat, həm də təchizat və qida baxımından mövcud problemlərə baxmayaraq, Ənvər paşa 125 min əsgərə "irəli" əmri verir.

## "ALTI ƏSRLİK QOCA OSMANLI ÖLÜM NÖVBƏSİNDƏ İDİ"

Mənfi 40 dərəcə şaxta türklərə düşməndən daha betər qənim kəsilir. Gündüz başlayan yürüşdə əsgərlərin yumşalan çarıqları gecə donmağa, bir qəlib kimi ayaqlarını sıxmağa başlayır. Addım atmaq imkansız olurlar. Əsgərlər donmamaq üçün olduqları yerdə hoppanıb-düşməyə başlayırlar, ancaq şaxta bütün vücudlarını sarır. Ənvər paşanın növbəti əmri gəlir: "Yıxılıb qalan əsgər qaldırılmayacaq". 125 minə yaxın əsgər və zabitdən ibarət isti paltarsız, təminatsız, zəif silahlanmış ordunun arasında yüzlərlə azərbaycanlı könüllü də var idi. Canı bir, qanı bir qardaşlarına köməyə getmişdilər. Tarixçilər bu mənzərəni belə ifadə edirdilər: "Altı əsrlik qoca Osmanlı ölüm növbəsində idi". Ruslar vaxt itirmədən Qafqaz cəbhəsini açır və Qərbi Anadolu torpaqlarına girirlər. Avropa və Asiyanın bir çox ölkələrinə səpələnmiş Osmanlı ordusu ingilis, fransız, yunan və rus hücumları qarşısında duruş gətirə bilmirdi. Hər gün sayı azalırdı. Hərəkət planına görə, 9-cu ordu Sarıqamış dağlarını, 10-cu ordu isə Allahuəkbər dağlarını aşaraq, rusları Sarıqamışda mühasirəyə almalı idi.

## "MƏN QƏLBƏN SAVAŞDIM VƏ PEŞMAN OLMADAN ÖLÜRƏM"

Tarixin səhifələrində göstərilir ki, ruslar yanvarın 4-də qəti hücuma keçdilər. Türk ordusu özündən 8 qat güclü düşmənlə qarın-çovğunun altında üz-üzə idi. Gözlənən yardım da gəlməmişdi. Ənvər paşa vəziyyətin nə qədər ağır olduğunu gördükdən sonra vəsiyyət yazır: "İndiyə qədər əsgər və zabitlərimiz qüsursuz savaşdılar, bir çox manevr etdilər. İndi isə 11-ci kolordunu və süvari dəstəsini gözləyirəm. Gəlir və yetişərsə düşməni pozacağam. Gəlməsə düşmən zəifləmiş hissəmizə hücum edər, ordumuz məhv olar. Mən vəzifəmi yaptığımı sanıram. Məğlub olmayın, düşmənlə sona qədər savaşın, hər halda sonunda müvəffəq olacağıq. Mən qəlbən savaşdım və peşman olmadan ölürəm. Yaşasın dinim, Vətənim, padişahım!" 1915-ci ilin yanvarı idi. Yaşam dövründə zəfərləri qədər faciləri də çox olan Osmanlı dövləti tarixinin bu günündə səhifəsinə tayı-bərabəri olmayan, tükürpədici faciə yazdı. Sarıqamışda 90 mindən çox mehmetcik donub şaxtalı çöllərdə buz adamlara çevrildi. Soyuqdan bir-birinə sarılanlar elə bu vəziyyətdəcə ölmüşdülər. Türk qanına susamış işğalçı yadellilər bu savaşda bir qurşun belə işlətmədən istəklərinə nail olmuşdular. Mənbələrdə göstərilir ki, ingilis generalı Vavel Sarıqamış süqutundan sonra yazırdı: "Türk ordusu, dünyanın heç bir ordusunun yerindən tərpənməyəcəyi şərtlər altında müharibə edən ordudur. Bir nəfər belə ordusuna, vətəninə arxa çevirmədi". Sarıqamışdakı rus ordu generalı Pietroviç isə xatirələrində bu mənzərədən dəhşətə gəldiyini yazırdı. Tədqiqatçılar yazır ki, rus generalının son illər üzə çıxarılan məktub və xatirələri tük ürpədir, ürək göynədir. Pietroviç Moskvaya göndərdiyi teleqramda yazır: "Onları təslim ala bilmədim, çünki əsiralınası heç kimsə yoxdur. Onlar bizdən əvvəl öz Allahlarına təslim olmuşdular". Sarıqamış hərəkatı bir qəhrəmanlıq dastanına çevrildi. Bu tarixi savaş dünya tarixində baş verənlərin heç biri ilə müqayisə belə olunmur. Tarixin Sarıqamış uğursuzluğundan sonra Türkiyənin şərq hissəsi rus ordusunun işğalına, Qars və Ərzurum əhalisi isə rus və ermənilərin kütləvi qırğınına məruz qaldı. 1916-cı ilin fevralında Ərzurum, martda İsfahan, apreldə Trabzon, mayda Xoy və Dilman, iyunda Ərzincan, avqustda isə Mus rus ordusu və erməni terrorçu dəstələri tərəfindən işğal edildi. Ruslara arxalanan ermənilər türk-müsəlman kəndlərinə hücum edərək, əhalini qılıncdan keçirdilər. Sarıqamış məğlubiyyəti Türkiyə ilə bərabər Azərbaycanın da məğlubiyyətinə səbəb oldu. Ruslara arxalanan ermənilər türk-müsəlman kəndlərinə hücum edərək, əhalini qılıncdan keçirdilər. Bu uğursuzluqdan güclənən erməni terrorçuları Azərbaycana üz tutdular, elimizi kənd-kənd, oba-oba yandırıb külə döndərdilər.Ən dəhşətlisi isə budur ki, işğal olunmuş türk torpaqlarında, Anadolunun şərqində Ermənistan dövləti yaratdılar. Sarıqamış savaşında əsir götürülən minlərlə türk əsgərini Rusiya Cənubi Qafqaza gətirərək, o vaxt "Cəhənnəm adası" adlandırılan Nargində yerləşdirdi. Sarıqamış hərəkatında 90 min adam şəhid oldu. Təxminən 5000 nəfər ruslara əsir düşür. Məlumat üçün bildirək ki, Sarıqamış Türkiyənin cənub-şərqində, Qars əyalətində yerləşən və o qədər də böyük olmayan bir qəsəbədir. Dağlıq ərazidə yerləşdiyindən buraların qışı çox şaxtalı keçir, ilin altı ayı qar olur, yayı isə qısa və sərindir. Türkiyə bu əraziləri 1878-79-cu illərdə Balkan müharibəsində itirmişdi. O vaxtdan buralar 1920-ci ilə qədər çar Rusiyasının işğalı altında olub. Şanlı türk ordusu bütün çətinliklərə baxmayaraq, 1920-ci ildə Sarıqamış torpaqlarını düşmən işğalından əbədi azad edir. Bu gün Sarıqamış hərəkatından 108 il ötür. Faciədən 108 il keçsə də, Sarıqamış şəhidlərinin xatirəsi Türkiyə xalqı tərəfindən dərin ehtiramla anılır. Türkiyənin əsrarəngiz təbiətə malik Sarıqamış vilayətində indi geniş qış turizmi fəaliyyət göstərir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Etnik müxtəliflik - xalqların tarixi birliyi və qardaşlığı



Dünyanın aparıcı güc mərkəzləri, bəzi iddialı ölkələr insan hüquqları, din azadlığı anlayışından öz geosiyasi, geoiqtisadi maraqlarını təmin etmək üçün bir vasitə kimi istifadə edirlər. Belə bir zamanda Azərbaycan əsası Ulu Öndər tərəfindən qoyulan nümunəvi dövlət-din münasibətləri və müasir multikulturalizm siyasəti həyata keçirir. Bu siyasət bəşəri dəyərlər sisteminə, xüsusilə beynəlxalq təhlükəsizliyə qarşı yaranmış təhdidlərin qarşısının alınmasında çox önəmli strategiyaya çevrilib. Dünyada radikalizmin, ekstremizmin fəsadlarına yönəlik mübarizədə Azərbaycan strategiyasının alternativi yoxdur. Dini dözümlülük, tolerantlıq, multikulturalizm artıq Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindən biri, xalqımızın həyat tərzidir. Bu istiqamətdə görülən işlər milli-mənəvi və tolerantlıq dəyərlərinin təbliği və təşviqində, eləcə də ayrı-ayrı dini konfessiyalar arasında sağlam münasibətlərin formalaşmasında müstəsna əhəmiyyət kəsb edir.

Əsas Qanunumuzda irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi mövqeyindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyi nəzərdə tutulmuş, insan və vətəndaş hüquqlarının və azadlıqlarının göstərilən əsaslara mənsubiyyətinə görə məhdudlaşdırılması qadağan edilib. Ölkəmizdə yaşayan qeyri-xalqların nümayəndələri ilə xalqımız əmin-aman şəraitdə yaşayır, birlik, həmrəylik nümayiş etdirirlər. Çətin, ağır, eləcə də xoş günlərdə bir-birinin yanındadırlar. Azərbaycan Respublikasındakı etnik icma rəhbərləri Ermənistanın 2020-ci il iyul ayının 12-dən etibarən Azərbaycanın Tovuz bölgəsində törətdiyi hərbi təcavüz aktlarını, təxribatları qətiyyətlə pislədilər. Bununla bağlı Azərbaycan Respublikasındakı etnik icma rəhbərləri birgə bəyanat yaydılar. Belə ki, Talış Mədəniyyət Mərkəzi, Azərbaycanda Rus İcması, Azərbaycan-Avar İcması İctimai Birliyi, Bakı Dağ Yəhudiləri Dini İcması, Azərbaycan Respublikasının Alban-Udi Xristian Dini İcması, Avropa Yəhudilərinin Bakı Dini İcması və digər icma rəhbərləri təmsil etdikləri Azərbaycan xalqları adından Azərbaycanın Tovuz bölgəsində törətdiyi hərbi təcavüz aktlarını, təxribatları qətiyyətlə pislədilər. Həmin təcavüz aktları nəticəsində Azərbaycanın ondan çox hərbi qulluqçusu, o cümlədən yüksək rütbəli zabitlər və bir dinc sakini həlak olmuşdur. Milli ordumuzun sıralarında Azərbaycanda yaşayan xalqların yüzlərlə nümayəndələri - əsgər və zabitləri var. Vətən Müharibəsi dövründə müxtəlif xalqların övladları da Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin çağırışına səs verərək könüllü olaraq orduda xidmət etmək, Azərbaycanın ərazi bütövlüyünü qorumaq, torpaqlarımızı mənfur düşməndən təmizləmək istəyi ilə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət etmişdilər.

Ermənistan dəfələrlə Azərbaycanda yaşayan xalqların içərisinə ədavət toxumu səpməyə, süni qarşıdurma yaratmağa çalışmış, lakin öz mənfur niyyətinə nail ola bilməmişdir. Əksinə, onların çirkin təxribatları, dinc əhaliyə qarşı törətdikləri cinayətlər, döyüş bölgələrində verdiyimiz şəhidlər bizim sıralarımızı daha da genişləndirir. Azərbaycanın ən böyük sərvəti onun etnik müxtəlifliyi, burada yaşayan bütün xalqların tarixi birliyi və qardaşlığıdır. Ölkəmizdə indiyədək etnik və dini zəmində qarşıdumaların baş verməməsi Azərbaycanın yürütdüyü milli siyasətin parlaq təzahürüdür.

Azərbaycan Prezidenti çıxışlarının birində bildirdiyi kimi, tarix və coğrafiyamız nümayiş etdirir ki, biz yalnız tərəfdaşlıq və qarşılıqlı hörmət ruhunda uğura nail ola bilərik. "Azərbaycanın bugünkü sürətli inkişafı da məhz bu mədəni irsimizə və cəmiyyətimizin bütün nümayəndələrinin nümayiş etdirdiyi həmrəyliyə əsaslanır. Biz tariximiz, tarixi abidələrimizlə fəxr edirik. Onlar da əsrlər boyu müxtəlif dinlərin nümayəndələrinin Azərbaycanda yaşayıb-yaratdıqlarını göstərir. Biz qədim tariximizlə fəxr edirik", - deyən dövlət başçısı bildirib ki, dünyanın ən qədim məscidlərindən biri qədim Şamaxı şəhərində yerləşir: "Qafqazın ən qədim kilsələrindən biri olan Qafqaz Albaniyasına məxsus kilsə bizim qədim Şəki şəhərindədir. Bizim tariximiz mədəni müxtəliflik tarixidir və bu gün həmin tarixi irs əsasında Azərbaycan dünyaya mədəniyyətlərarası dialoqun ölkələri yaxınlaşdırmağın, müxtəlif mədəniyyət və sivilizasiya nümayəndələri arasında yeni körpülərin qurulmasının yeganə yol olduğunu nümayiş etdirir".

***Zümrüd BAYRAMOVA***

# Paşinyanın tək çarəsi

İtə deyiblər ki, niyə hürürsən, deyib qorxuduram, soruşublar quyruğun niyə titrəyir, cavab verib ki, özüm qorxuram, lap Paşinyan kimi. Faşist Almaniyasına və şəxsən Hitlerin ta kəndisinə biət edən, onun xidmətçisi dədə Paşinyanın nəvəsi Vova oğlu Nikol mətbuat konfransı keçirib və Ermənistanın yaradılışından indiyədək onu mühafizə və idarə edən müttəfiqi Rusiyanın ünvanına bütün leksikonundakı qeyri-etik ifadələri işlədib. Düzdür, həmin söyüşləri açıq şəkildə deməyib, amma sətiraltı ifadələrlə Moskvanı lənətləyib, ermənilərin başına gələn bəlaların günahkarı kimi ittiham edib. Hətta, bu il Ermənistanda keçirilməsi nəzərdə tutulan KTMT-nin hərbi təlimlərini də ləğv edib. Bəs Nikolun hansı fikirləri gündəm olub, yaxud Paşinyan hansı ifadələri işlədib ki, şəxsən Putinin sözçüsü Peskov reaksiya verməli olub?

Ermənistanın baş naziri Nikol Paşinyan





mətbuat konfransı zamanı bildirib ki, əgər Laçın dəhlizinin bloku açılmasa Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından (KTMT) və MDB-dən çıxmaq məsələsi gündəmə gələ bilər, amma hələlik bu niyyətdə deyil. Eyni zamanda, Paşinyan qeyd edib ki, Rusiya sülhməramlı kontingenti yolun fəaliyyətini təmin etməlidir, lakin İrəvan Moskva ilə ultimatum şəklində dialoq aparmayacaq. "Düşünmürəm ki, tərəfdaşlarımızla ultimatum dili ilə danışaq. Bu məsələ ilə bağlı söyləməli olduğumuz hər şeyi biz dəfələrlə bəyan etmişik və ümumiyyətlə, əlavə ediləcək heç nə yoxdur", deyib. Paşinyan həm qorxudur, həm də qorxur

Ermənistanın baş nazirinin sözlərinə görə, Laçın dəhlizi Rusiyanın Qarabağdakı sülhməramlı kontingentinin nəzarəti altındadır və sülhməramlılar "dəhlizin normal fəaliyyətini təmin etməlidirlər". "Biz hesab edirik ki, bizim təsir mexanizmimiz diplomatik yolla olmalıdır, yəni Laçın dəhlizinin açılması üçün beynəlxalq təzyiqlər tətbiq edilməlidir", - o əlavə edib. Bundan əvvəl bir sıra erməni KİV-ləri İrəvanın guya Moskvaya ultimatum təqdim edərək, Laçın dəhlizinin yanvarın 10-dək açılmasını tələb etdiyini yazıb. Bundan başqa, baş nazir bəyan edib ki, Ermənistan öz ərazisində KTMT təlimləri keçirməyəcək.

Qeyd edək ki, dekabrın 12-dən bu günə qədər, artıq 30-cu gündür ki, Xankəndi ilə Laçını birləşdirən və Şuşa şəhəri yaxınlığından keçən yolda ekoaktvistlər etiraz aksiyası keçirirlər. Tələblər də bəllidir, amma yol humanitar yüklər üçün açıqdır. Bu günə qədər həmin yoldan, etirazçıların lap yanından onlarla maşın hər iki istiqamətə hərəkət ediblər. Amma ermənilər bu faktı görməzdən gəlir və dünya ictimaiyyətinə guya yolun tamamilə bağlandığı barədə yalan məlumatlar verirlər. Halbuki həmin yolda Ermənistan hakimiyyətinin hərəkətsizlikdə ittiham etdiyi Rusiya sülhməramlı kontingenti yerləşdirilib. Rusiya Xarici İşlər Nazirliyi ermənilər tərəfindən sülhməramlılara qarşı yönəlmiş tənqidi qəbuledilməz adlandırıb.

Ermənistanın baş naziri Nikol Paşinyan yanvarın 10-da keçirdiyi mətbuat konfransında deyib ki, Azərbaycan son dövrlərdə Qərb dövlətləri ilə görüşlərdə Ermənistan və Rusiya Federasiyasının Azərbaycana qarşı birgə təcavüzkar addımlar ata biləcəyi qorxusu ilə izah edir və onlar qabaqlayıcı tədbirlər görürlər. "Bu absurddur, lakin Ukrayna hadisələri fonunda bu bəyanatlar maraq doğurur və Azərbaycan bundan istifadə edir. Biz rusiyalı həmkarlarımızın diqqətini ona yönəldirik ki, cavab verilmədikdə belə çıxır ki, Rusiya Federasiyasının hərbi mövcudluğu nəinki Ermənistan Respublikasının təhlükəsizliyini təmin etmir, həm də onun üçün təhlükə yaradır. Biz hələ nəticə çıxarmırıq, sadəcə faktları qeydə alırıq", - deyə baş nazir bildirib. Onun sözlərinə görə, bu, rusiyalı həmkarları ilə dəfələrlə, lakin iş gündəliyi çərçivəsində müzakirə olunub. O, mövzunu ictimailəşdirmək qərarına gəlib ki, cəmiyyətdə hakimiyyətin ölkənin maraqları ilə bağlı məsələyə susması təəssüratı yaranmasın.

Belə çıxır ki, Paşinyan yenə yalan danışır, ictimaiyyəti aldadır, verdiyi mesajlar da daxili auditoriyanı sakitləşdirməyə yönəlib. Çünki, Ermənistanda hər kəs baş verən hadisələrin günahkarı kimi Nikolu görür. İctimai qınaqdan yayınmaq üçün Paşinyan yeni bir metod kəşf edib. Fürsətcil Nikol bu dəfə KTMT-nin təlimlərinin ölkədə keçirilməsinin məqsədəuyğun olmadığını söyləyib. Baş nazir "ən azı bu il" deməklə məsələni çox da dramatikləşdirmək istəməyib, necə deyərlər, əl yeri də qoyub. "Ermənistanın müdafiə naziri artıq KTMT-dəki həmkarlarına yazılı şəkildə məlumat verib ki, bu vəziyyətdə Ermənistanda KTMT təlimlərinin keçirilməsini məqsədəuyğun hesab etmirik. Bu təlimlər ən azı bu il Ermənistanda keçirilməyəcək", - baş nazir bildirib.

Qeyd edək ki, yanvarın 1-də Rusiya Müdafiə Nazirliyi 2023-cü ildə KTMT-yə üzv ölkələrin hərbçilərinin "Sarsılmaz qardaşlıq-2023" birgə təliminin Ermənistanda keçiriləcəyini açıqlamışdı. Bir az da əvvələ qayıdaraq xüsusi vurğulamaq istərdik ki, ötən ilin noyabrın 23-də Ermənistanın baş naziri İrəvanda Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının Kollektiv Təhlükəsizlik Şurasının bəyannamə layihəsini imzalamaqdan imtina etdi. Paşinyan bəyan etdi ki, sənəd kifayət qədər yekunlaşdırılmayıb. Ermənistan hakimiyyəti KTMT-nin Qazaxıstanda sentyabrın 26-dan oktyabrın 8-dək keçirilən təlimlərində iştirakdan imtina edib. Ölkənin hərbi fəaliyyətdə iştirakdan imtina etməsinə səbəb Azərbaycanla sərhəd münaqişəsi olub.

Rusiya bu il Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) təlimlərini keçirməkdən imtina etməsi ilə bağlı Ermənistanın mövqeyini aydınlaşdıracaq. Bunu Kremlin mətbuat katibi Dmitri Peskov deyib. "Düşünürəm ki, KTMT xətti ilə həmkarlar əlaqə saxlayacaq, Ermənistanın mövqeyinin təfərrüatlarına aydınlıq gətirəcəklər. Hər halda, Ermənistan bizim çox yaxın müttəfiqimizdir, biz indi çox çətin olan məsələlərlə bağlı dialoqu davam etdirəcəyik", - deyə Peskov əlavə edib.

Göründüyü kimi, siyasətdə naşı olan Paşinyanın fikirlərinə düzəliş etməsi üçün vaxt verən Peskov dolayısı ilə Ermənistanın baş nazirinin müstəqil siyasət yürüdə bilməyəcəyinə də işarə vurub. Əslində Ermənistanın indiki rəhbərliyi müharibədə aldığı ən ağır zərbədən sonar hələ də özünə gələ bilmədiyini əyani şəkildə sübut edir. Bu ölkə hələ də köhnə ab-hava ilə yaşayır, aldığı ağır məğlubiyyəti hələ də sindirə bilmir, yaxud "yuxu xəstəliyi" səbəbindən hələ də yuxudan ayıla bilmir.

Haşiyə: Qazaxıstanın Akmola vilayətinin Esil rayonunun Kalaçi kəndində baş verən və belə demək mümkünsə, yuxu gətirən müəmmalı hadisələri xatırlamalı olduq. Həmin kəndin sakinləri hər kəsin, hətta elm adamlarının təəccübünə səbəb olan bir bəla ilə üzləşirlər. Kəndddə yaşayan sakinlərin bəziləri arasında qəribə, uzunmüddətli yuxuya getmə halları müşahidə edilməyə başlayır. "Yuxu xəstəliyi" bir gündə 100-dən artıq sakinin yatağa düşməsinə səbəb olur. Müəmmalı xəstəlik qonşu Berezovski kəndində də müşahidə edilir. Səhiyyə Nazirliyi müəmmalı "yuxu xəstəliyi"nin səbəblərini araşdırmaq üçün təcrübəli həkimlərini cəlb edir. Məsələyə hətta o vaxtkı prezident Nursultan Nazarbayev də qarışır. Rusiyadan, Çindən, ABŞ-dan, Yaponiyadan və Almaniyadan məşhur tibb alimləri də cəlb edilir. Lakin onlar da bu müəmmalı xəstəliyin səbəbini müəyyən etməkdə aciz qalırlar. Çıxış yolu əhalinin köçürülməsində görülür. Və əhali həmin kəndlərdən köçürülür

Ermənilər də hələ nə olduğunu anlaya bilmirlər, çünki hələ də yuxudadırlar. "Yuxu xəstəliyi"nə yoluxan "hay"ları ayıltmaq üçün tək bir yol qalır, onları bu torpaqlardan köçürmək, VƏSSALAM!

***V.VƏLİYEV***

# "AzerTelecom" və "Kazakhtelecom" Trans Xəzər layihəsinin reallaşdırılmasının aktiv fazasına keçirlər

Azərbaycan və Qazaxıstanın aparıcı telekommunikasiya şirkətləri "AzerTelecom" və "Kazakhtelecom" arasında Xəzər dənizinin dibi ilə fiber-optik rabitə xəttinin çəkilməsi layihəsi çərçivəsində "Əməkdaşlıq şərtləri haqqında Saziş" imzalanıb. Bu saziş strateji tərəfdaşlığın əsas sənədidir və iki şirkət arasında daha öncə imzalanmış memorandum çərçivəsində əməkdaşlığın başlıca şərtlərini müəyyən edir. Azərbaycan-Qazaxıstan marşrutu üzrə Xəzər dənizinin dibi ilə Transxəzər Fiber-Optik Rabitə Xətti layihəsi Avropa ilə Asiya arasında rəqəmsal telekommunikasiya dəhlizinin yaradılmasını nəzərdə tutan irimiqyaslı "Rəqəmsal İpək Yolu" (Digital Silk Way) layihəsinin bir hissəsidir.



"Bu layihənin həyata keçirilməsi həm Qazaxıstan, həm də Azərbaycan üçün çox vacibdir. Bu,Qazaxıstan və Asiya ölkələri üçün şəbəkənin bağlantısını və etibarlılığını artıran yeni alternativ marşrut, Azərbaycan üçün isəregional rəqəmsal mərkəzə çevrilmək deməkdir. Tarixən mövcud olan İpək Yolu rəqəmsal formada dirçəlir və bu marşrut yüzlərlə terabit məlumatın buraxılışını təmin edəcək. Bu, bütün marşrut boyunca məlumatların saxlanılması və emalı infrastrukturunun inkişafını sürətləndirəcək. Asiya vəAvropa arasında informasiya axınının Azərbaycan və Qazaxıstan üzərindən keçməsi regionda rəqəmsal biznesin inkişafı üçün yeni imkanlar yaradacaq", - deyə "AzerTelecom" şirkətinin əməliyyat üzrə Baş direktoru Sergey Nazarenko bildirib.

Telekommunikasiya operatorları əmindirlər ki, layihə yeni rəqəmsal telekommunikasiya dəhlizinin yaradılmasının sürətləndirilməsinə təkan verəcək, məlumatların sürətli və təhlükəsiz ötürülməsi infrastrukturunun daha yüksək inkişaf səviyyəsinə çatmağına, eləcə də ticarət və digər əlaqələrin möhkəmlənməsinə kömək edəcək.

"Fiber-optik rabitə xətlərinin çəkilməsi layihəsi Qazaxıstan üçün çox vacibdir. Onun həyata keçirilməsi ilə biz beynəlxalq trafikə əlavə çıxış və yeni kanal əldə edəcəyik ki, bu da Asiya ölkələrindən Qazaxıstan ərazisindən keçən qlobal tranzit axınınısualtı kabel vasitəsilə Azərbaycana, daha sonra Gürcüstan,Qara dəniz və Bolqarıstanda-nAvropaya təmin etməyə imkan verəcək. Bundan başqa, paralel olaraq, bu layihə çərçivəsində biz hipermagistral və ya yeni Data Mərkəzlərinin tikintisi kimi digər iri infrastruktur layihələrini yarada biləcəyik. Belə layihələrin inkişafı nəticəsində Qazaxıstan iri beynəlxalq oyunçular üçün maraqlı və perspektivli olacaq", - deyə "Kazaktelecom" SC-nin Korporativ Biznes Bölməsinin Baş direktoru Almat Karamanov bildirib.

Operatorlar Qafqaz və Mərkəzi Asiyada ən iri layihə olan Azərbaycan-Qazaxıstan marşrutu üzrə Xəzər dənizinin dibi ilə fiber-optik rabitə xəttinin tikintisi üzrə işləri növbəti ilin sonuna kimi reallaşdırmaq niyyətindədirlər. Artıq yüksək səviyyəli dizayn layihəsi işlənib hazırlanıb, detallı yol xəritəsi təsdiq edilib, tədqiqat işlərinin bitməsindən sonra Xəzərin dibi iləbirbaşa "optik xəttin" tikintisi aparılacaq. Sualtı xəttin əsas marşrutu Aktaudan Siyəzənə qədər uzanacaq və uzunluğu 340 kilometrdən çox olacaq, uzunluğu 330 km olan ehtiyat kanal isə Qazaxıstanın Kurık limanındanBakının yaxınlığında yerləşən Buzovnaya qədər çəkiləcək.

"NEQSOL Holding"in tərkibinə daxil olan "AzerTelecom" Azərbaycanın aparıcı rabitə operatorudur və ölkənin beynəlxalq internet şəbəkəsinə qoşulmasını təmin edir.

"Kazakhtelecom" Qazaxıstanın ən böyük telekommunikasiya şirkətidir və milli rabitə operatoru statususna malikdir.

# Bəhruz Quliyev:

## ““SƏS” qəzeti qətiyyətli və şərəfli yol keçmiş mətbuat məktəbidir”

**Çox mürəkkəb bir dövrdə, ictimai-siyasi hadisələrin gərgin olduğu zamanlarda işıq üzü görmüş və şanlı tarixi yol keçmiş "SƏS" qəzetinin 32 yaşı tamam olur. Qəzetin Baş redaktoru, fəlsəfə üzrə fəlsəfə doktoru Bəhruz Quliyevlə müsahibəmiz də bu barədədir.**



***- Bəhruz müəllim, "SƏS" qəzetinin ilk sayının çapdan çıxmasının 32-ci ildönümü tamam olur. Qəzetin fəaliyyətə başlaması, necə deyərlər, keçdiyi enişli-yoxuşlu, keşməkeşli yolları, tarixi barədə hansı fikirlərinizi bölüşərdiniz?***

- Çox doğru qeyd etdiniz ki, "SƏS" qəzeti fəaliyyətinin 32 illik dövründə keşməkeşli, elə də asan görünməyən yolları keçib. Lakin mən onu da qeyd etmək istərdim ki, keçilən bu yol həm də özündə qətiyyətlik prinsiplərini əxz etdirən şərəfli bir yoldur ki, onun təməlində müstəqil mətbuatımızın sarsılmaz əqidə məktəbi dayanmaqdadır. Beləliklə, qeyd etmək olar ki, "SƏS" qəzeti yalnız üzərinə düşən tarixi missiyaları yerinə yetirən mətbu orqanı deyil, bu qəzet eyni zamanda, bir mətbuat məktəbidir. Məhz Azərbaycanın müstəqillik tarixi ilə yaşıd olan "SƏS" qəzeti bütün fəaliyyəti dövründə xalqın sözünü deyən sevimli mətbuat orqanına çevrilməyi bacarıb və daim Azərbaycan dövlətçiliyinin, Ulu Öndər Heydər Əliyev ideyalarının yaşadılmasına, inkişafına, tərəqqisinə çalışıb, bu gün də çalışmaqdadır. Əlbəttə ki, belə bir tarixi əhəmiyyətli və qətiyyətli yolu keçmək heç də hər mətbuata nəsib olmur. Biz fəxr edirik ki, belə bir yolu keçmək, belə bir aşırımları aşmaq, qət etmək bizlərə nəsib olub və bu arada fürsətdən istifadə edərək, mən və redaksiya heyətimiz bizi növbəti - 32-ci ildönümümüz münasibəti ilə bağlı təbrik edən hər kəsə öz dərin minnətdarlığımızı bildiririk.

***- "SƏS"in yaranması zərurəti necə baş verdi və 32 il əvvəl cərəyan edən hadisələr fonunda qəzetin fəaliyyətə başlamasında yəqin ki, çətinliklər, keçilməsi mümkün görünməyən sədlər, baryerlər də var idi...***

- Təbii ki, "SƏS"in yaranması çox mürəkkəb ictimai-siyasi hadisələrin tüğyan etdiyi bir dövrə təsadüf edirdi. Qəzetimizin fəaliyyətə başlaması tarixinə diqqət yetirsəniz görərsiniz ki, o vaxt hələ rəsmi müstəqillik aktı qəbul olunmamışdı və ölkənin ilk müstəqil mətbu orqanı olaraq kifayət qədər sədlər, baryerlər mövcud idi. Ona görə də dəqiq tarixləri diqqətinizə çatdırmaq və xatırlatmaq istərdim. "SƏS" ictimai-siyasi qəzeti 1990-ci ilin noyabrında "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı olaraq qeydiyyatdan keçib, 1991-ci il yanvarın 11-də dərc olunmağa başlayıb. Fəaliyyətə başladığı vaxtdan həftədə 2 dəfə 8 səhifə həcmində və 5-10 min arası tirajla dərc olunan qəzet Ağabəy Əsgərovun baş redaktorluğu ilə nəşr edilib.

1992-ci ildən başlayaraq qəzetimizin tirajı 15 mindən yuxarı olub, 1993-cü ildə isə tirajımız 25 minə qədər çatıb. O dövrlərin ictimai-siyasi hadisələri fonunda qəzetə tələbat daha da artıb və tiraj sayı hətta zamanzaman 35 mini də keçib. Bu, kifayət qədər böyük rəqəmdir və eyni zamanda, xalqın marağını əks etdirirdi. Təsəvvürünüzə gətirin ki, həmin vaxtlarda elektron media demək olar ki, yox idi, həmçinin qəzetlərin çap mexanizmi də indikindən qat-qat fərqli idi ki, böyük tirajların dərc edilərək oxucu auditoriyalarına çatdırılması böyük zəhmət, ağır iş tələb edirdi. Bu gün biz xoşbəxtik ki, qəzetimiz həmin ağırlıqlara sinə gərərək bu gün müasir mətbuat sıralarında öz sözünü deməkdə davam edir.

Siyasi tərəfinə gəldikdə isə qeyd edim ki, 1992-ci ildən başlayaraq, "SƏS" qəzeti hakim Yeni Azərbaycan Partiyasının təşkilatlanmasında baza rolunu oynayıb, xalqla Ulu Öndər arasında olan sevgini, dəstək və vəhdət faktorunu biri-birinə çatdırıb, partiya yarandıqdan sonra isə onun əsas mətbu ruporu qismində fəaliyyətini davam etdirib, YAP-ın bəyanatlarını, yığıncaqlarını və sair tədbirlərini öz səhifələrində geniş işıqlandırıb. 1994-cü ildən başlayaraq 16 səhifə həcmində çap olunmaqla yanaşı, qəzetimiz 1998-ci ildən etibarən gündəlik işıq üzü görməyə başlayıb. Bütün dövrlərdə "SƏS"in səhifələrində tanınmış ictimai-siyasi xadimlərin, nüfuzlu elm adamlarının, mədəniyyət nümayəndələrinin, ziyalılarımızın məqalələri dərc olunub.

Digər tərəfdən, "SƏS"in danılmaz həqiqət payı budur ki, qəzet yarandığı gündən Ulu Öndər Heydər Əliyevin müdafiəçisi rolunda çıxış edib, Onun Naxçıvandakı çətin, ağır və yorulmaz fəaliyyətini ölkə ictimaiyyətinə çatdırıb. Qəzetimiz 1991-93-cü illər saylarında Ulu Öndər Heydər Əliyevin müsahibələrini və Onun haqqında məqalələri, həmçinin, ölkə parlamentindəki çıxışlarını oxucularına təqdim edib. Həmçinin, Ulu Öndərin xarici mətbuata verdiyi müsahibələri tərcümə edilərək, ölkə ictimaiyyətinə çatdırılıb. Bütün bu reallıqlar isə əlbəttə ki, asan başa gəlməyib. Belə ki, qəzet fəaliyyətə başladığı dövrdə dövlətçilik uğrunda çox böyük, hətta orada çalışan jurnalistlərin həyatına təhlükə yarada biləcək qədər işlər gördü. Xüsusilə, AXC-Müsavat hakimiyyəti illərində qəzetimizə qarşı davamlı basqılar, hücumlar baş qaldırır, orada çalışan redaksiya heyətinə təhdidlər yağdırılırdı. Hətta bir neçə dəfə qəzetin redaksiyasına silahlı hücumlar, sui-qəsdlər təşkil olunmuş, jurnalistlərə xəsarətlər yetirilmişdi. Ancaq bütün bunlara baxmayaraq, nəşr öz fəaliyyətini dayandırmadı, əksinə öz fəaliyyətini daha əzmkarlıqla, daha qətiyyətlə davam etdirdi, heç bir təhdiddən, hücumlardan çəkinmədiyini, istənilən anda mübarizə apardığı ideologiyaya görə sinə gərməyini, buna gücünün çatdığını sübuta yetirirdi. Məhz həmin zamanlardan sərtliklərə, təqib və təzyiqlərə, ona meydan oxuyanların gözlərinin içinə dik baxan "SƏS"in adına xalq arasında polad iradəli, qətiyyətli, mübariz qəzet ifadəsi ələ və edildi.

1992-ci il oktyabrın 16-da ölkənin 91 nəfər tanınmış ziyalısının Heydər Əliyevə müraciəti və oktyabrın 24-də Ulu Öndərin həmin müraciətə cavabı da məhz "SƏS" qəzetində dərc olunub. Halbuki, bir sıra mətbu orqanlar həmin tarixi müraciəti dərc etməkdən çəkinirdilər. O da əbəs deyil ki, Ümummilli Lider hakimiyyətə gəldikdən sonra "SƏS" qəzetini doğma qəzet adlandırıb və xüsusilə vurğulayıb ki, "SƏS" qəzeti tarixə düşmüş bir qəzetdir:""SƏS" qəzeti mənim üçün çox əziz və artıq Partiyamızın tarixində möhtəbər yer tutmuş bir qəzetdir. Bu qəzet qorxmadan ziyalıların mənə müraciətini və mənim cavabımı dərc edib... İndi də durmadan modernləşir yaxşılaşır, arzum budur ki, daha da modernləşsin, yaxşılaşsın... "Bu gün "SƏS"in gündəlik buraxılışlarında Ulu Öndərimizin tarixi kəlamları QR kod vasitəsilə videogörüntülü olaraq yaşamaqda, yaşadılmaqdadır.

Dahi Öndərimiz Heydər Əliyevin Prezident seçilməsindən və YAP-ın hakimiyyətə gəlişindən sonra qəzet ölkənin ictimai həyatında daha böyük rol oynamağa başlayıb. Həmçinin, dövlətin, Prezidentin və partiyanın fəaliyyəti haqda xəbərlərin, dünyada və ölkədə yaşanan proseslərin ictimaiyyətə çatdırılması missiyasını davam etdirib. Müstəqil Azərbaycanın ilk qəzetlərindən biri olan "SƏS" qəzeti hazırda da eyni kursu davam etdirir və ölkə mətbuatında özünün xüsusi yeri ilə seçilir. Qəzet dövlət və xalq arasında münasibətlərin daha da yaxınlaşması, cəmiyyətin maariflendirilməsi üçün, mütəmadi olaraq, media-layihələr həyata keçirir. Əlamətdar tarixi günlərdə qəzetin xüsusi buraxılışları, multimedia diskləri və digər əlavələri buraxılır. Hazırda qəzetimiz gündəlik 5 min tirajla nəşr olunur, redaksiya heyətimiz isə 40 nəfərə yaxındır. Onların əksəriyyəti gənc nəslin nümayəndələridir ki, jurnalistlik peşəsinə məhz buradan qədəm qoyurlar, "SƏS"in ocağının istisində qızınırlar, buranı özlərinə ikinci ev kimi görürlər. Eyni zamanda, ölkənin bir sıra bölgələrində müxbir postlarımız da davamlı şəkildə fəaliyyət göstərməkdədir.

***- Bəhruz müəllim, qeyd etdiyiniz kimi, "SƏS" Yeni Azərbaycan Partiyasının yaradılmasında baza rolunu oynayıb, hakim partiyanın ilk ruporu kimi fəaliyyət göstərib. Bəs müasir zamanda təbliğat işləri necə qurulur?***

- Sözsüz ki, "SƏS" qəzetinin keçdiyi tarixi yol, onun fəaliyyətini bütün hallarda Yeni Azərbaycan Partiyasının fəaliyyətindən ayrı təsəvvür etmək mümkün deyil. O cümlədən, partiyanın fəaliyyətinin təbliğində və işıqlandırılmasında qəzetimizin özünəməxsus rolu mövcuddur. "SƏS" bu gün Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin siyasi xəttini, fəaliyyətini çox fəal, qətiyyətli şəkildə müdafiə edir, YAP-ın bütün seçki və siyasi kampaniyalarında fəallıq göstərir. Bu da öz ədalətli mövqeyində dönməz olan "SƏS"in ictimai-siyasi qəzet kimi nüfuzunu, populyarlığını daha da artırır və qəzetin artan oxucu auditoriyasını bir qədər də genişləndirir.

Son dövrlərin ictimai-siyasi proseslərində, eləcə də qloballaşan dünyada baş verən hadisələrin işıqlandırılmasında fərqliliyi ilə seçilən "SƏS" qəzeti 44 günlük Vətən müharibəsində deyərdim ki, ən fəal mətbu orqanı olaraq seçildi. İstər analitik yazıları, istər cəbhədə baş verən hadisələrin operativ çatdırılması, istərsə də yerli və xarici politoloq və siyasi xadimlərin mövqelərinin işıqlandırılmasında, xüsusilə milli ideya, vətənpərvərlik mövzularının təbliğində qəzetimiz var qüvvəsini ortaya qoydu. Əsasən, düşmənlə aparılan informasiya müharibəsində biz fəaliyyətimizi bilavasitə Müzəffər Ali Baş Komandan, xalqının, Ordusunun qalib Sərkərdəsi İlham Əliyev cənablarının fikir və konsepsiyaları, tezisləri kontekstində qurduq, cəbhədə əldə edilən zəfərimiz üçün bütün gücümüzlə çalışdıq. Bu, ilk növbədə bizlərin jurnalistlik missiyamızla yanaşı, həm də vətəndaşlıq borcumuz, məsuliyyətimiz idi.

***- Bütövlükdə Azərbaycan mətbuatının fəaliyyəti, eləcə də, dövlət-media siyasəti arasındakı körpünün hansı perspektivlərə yol açdığı barədə nə deyə bilərsiniz?***

- Sualınıza görə minnətdaram. Belə ki, bu sual daim mətbuat adamlarının diqqətindədir və ilk növbədə, demokratik, müstəqil ölkənin mətbuatında dövlət-media münasibətlərinin davamlılığı, mövcud körpü dayaqlarının əsaslı şəkildə möhkəmləndirilməsi öz aktuallığını qoruyub saxlayır. Əbəs deyil ki, media dördüncü hakimiyyət statusuna malikdir və bu statusa malik olmağın özü də bir məsuliyyət hissi yaradır.

Digər tərəfdən, tarixi köklərə malik olan Azərbaycan mətbuatı bu gün də öz ənənələrini qoruyub-saxlamaqla yanaşı, çağdaş dövrümüzə qədər müxtəlif siyasi-ictimai proseslər mərhələsindən keçib və hazırda dünyanın informasiya məkanında özünəməxsus özəllikləri ilə seçilməkdədir. Məhz bugünkü Azərbaycan mətbuatının əsaslı inkişafı üçün dövlət bir çox böyük layihələr reallaşdırıb. Yola saldığımız hər bir ildə media nümayəndəsi olaraq müstəqillik tariximizdə apardığımız fəaliyyətimizi bir daha təhlil edir, müasir dünyanın çağırışlarına cavab verən daha müfəssəl mətbuatın fəaliyyəti istiqamətində çalışmaq qərarını verir, uğurlarımızla kifayətlənmirik. Lakin bütün bunları reallaşdırmaq üçün əlbəttə ki, dövlətin dəstəyi hər zaman ön planda dayanır və dövlət də mətbuata göstərdiyi dəstəyini əsla əsirgəmir. Qəzet və saytların, digər KİV strukturlarının mütəmadi fəaliyyətləri üçün, onların bazalarının möhkəmləndirilməsi yönündə çoxsaylı layihələr, qərarlar verilir. Əlbəttə, biz burada Medianın İnkişafı Agentliyinin də fəaliyyətini vurğulamalı, xüsusilə bu qurumun yeniləşmiş qaydada iş prinsipinin verdiyi səmərələri də qeyd etməliyik. Bildiyimiz kimi, cənab Prezident İlham Əliyevin apardığı genişmiqyaslı islahatlar konsepsiyası sayəsində ölkəmizdə digər sahələrlə yanaşı, mətbuat sahəsində də mühüm islahatlara start verildi. Bu baxımdan, yenidən strukturlaşma sayəsində dövlət-media münasibətlərinə yeni nəfəs gəldi və bütün bunlar artıq əməli qaydada öz bəhrələrini verməkdədir.

Xüsusilə qeyd etmək istəyirəm ki, ölkə başçısı İlham Əliyev cənablarının jurnalistlərin əsl dostu olması faktoru Onun mediaya göstərdiyi diqqət və qayğısından qaynaqlanır. Mətbuat günü və s. mühüm tarixi günlərdə ölkəmizin inkişafında, təbliğatında yorulmadan çalışan hər bir mətbuat təmsilçisi dövlət mükafatları ilə qiymətləndirilir, habelə bu qiymətləndirmələr digər jurnalistlərin də fəaliyyətlərinin artırılmasına, əzmlə çalışmalarına geniş şərait yaradır. Həmçinin, jurnalistlərin mənzil-məişət, sosial həyatlarının təmin olunması da bu xüsusdandır, yəni dövlətin onlara verdiyi qiymətin tərkib hissəsidir. Məhz möhkəm əsaslara söykənən bu körpü yaxın gələcəkdə daha nəhəng perspektivli imkanlarına yol açır, jurnalistlərin əmək fəaliyyətlərinə əhəmiyyətli təkanlarını verir. Əlbəttə, biz jurnalistlər peşəmizlə yanaşı, həm də vətəndaşlıq məsuliyyətimizi öz üzərimizdə daim hiss edirik və dövlətçiliyimizin inkişafında, möhkəmləndirilməsində çətin və şərəfli missiyamızı həyata keçirməkdəyik.

***- Bəhruz müəllim, yeri gəlmişkən "SƏS" qəzetində davamlı və artıq ənənəvi xarakter alan yeniliklər və layihələr barədə fikirləriniz maraqlı olardı...***

- Sirr deyil ki, XXI əsr mətbuatı çox tələbkar oxucu kütləsinə ünvanlanmış, müasir texnologiyalara yiyələnmiş və ciddi rəqabət mühitində fəaliyyət göstərən sektora çevrilib. Qəzetin kollektivi yaradıcılıq prinsipləri və təşkilati-texniki meyarlar baxımından müasir dövrün tələbləri ilə ayaqlaşmaq sahəsində yüksək peşəkarlıq, böyük təşəbbüskarlıq nümayiş etdirir. Bu gün "SƏS" qəzetini internet şəbəkəsi vasitəsilə hər an bütün dünyada izləmək və oxumaq mümkündür. Qəzetin müasir informasiya texnologiyalarını mənimsəmək sahəsində göstərdiyi səylər, şübhəsiz ki, təqdirəlayiqdir. Hazırda bununla bağlı "SƏS"in fəaliyyətində böyük tərəqqi, müsbət irəliləyiş müşahidə olunur.

Hər il bir hesabat olduğu kimi, 32 illik hesabat dövrünə qısa nəzər saldıqda görürük ki, əlimizdə olan bütün imkanlardan maksimum qaydada yararlanmağımızla, fəaliyyətimizin əhatə dairəsini daha da genişləndirmişik. Cəmiyyətdə baş verən müxtəlif vacib məsələlərin və hadisələrin "Dəyirmi masalar" vasitəsilə ictimai müzakirəyə çıxarılması, həmçinin regionlarda görülən işlər və problemlərlə bağlı geniş müzakirələrin təşkili də qəzetin fərqli yeniliklərindəndir. "SƏS"in intellektual potensialından istifadə edərək müxtəlif dövrlərdə Ulu Öndər Heydər Əliyevin, Onun layiqli davamçısı İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın siyasi və dövlətçilik fəaliyyəti ilə bağlı film və multimedia diskləri hazırlanıb və geniş ictimaiyyətə təqdim edilmişdir. Yeni Azərbaycan Partiyasının ildönümlərində və siyasi hadisələr dönəmində, həmçinin 44 günlük Zəfər salnaməsinin işıqlandırılması yönündə müxtəlif sənədli filmlər və analitik yazılarla "SƏS" qəzeti ictimaiyyətə öz töhfəsini vermişdir.

Artıq 2008-ci ildən qəzetin maddi və intellektual bazasında yaradılmış, müasir informasiya siyasətinə uyğunlaşan, üç dildə "SƏS" İnformasiya Agentliyi (sia.az) fəaliyyət göstərir ki, qısa zamanda bu agentlik öz maraqlı, obyektiv informasiyaları ilə təkcə ölkə oxucularının deyil, həm də xarici ölkələrdə yaşayan azərbaycanlıların mütəmadi izlədikləri bir internet resursa çevrilib.

Qəzetin onlayn (PDF) variantı və internet saytı (sesqazeti.az) fəaliyyət göstərir və xarici ölkələrdə yaşayan azərbaycanlılar da sayt vasitəsilə qəzeti izləmək imkanına malik olurlar. Artıq 2020-ci ilin ortalarından başlayaraq qəzetimiz Quarkod (QR) vasitəsi ilə də Azərbaycanın müasir mətbuatında bir yeniliyə imza atdı. Azərbaycanda ilk dəfə olaraq video-qəzet formatında nəşrə başladı və qəzet üzərindən müxtəlif xəbərləri video-görüntü vasitəsi ilə izləmək mümkündür. Müasir informasiya texnologiyalarının imkanları bizim bu işi həyata keçirməyimizə təkan verdi.

Yola saldığımız 2021-ci ilin payızından başlayaraq "SƏS" qəzeti öz tarixi ənənələrini qorumaqla rəngli formatda və fərqli dizaynı, loqosu ilə oxucu auditoriyasının görüşünə gəldi. Qəzetimizin manşetindən başlayaraq digər bütün səhifələrinə qədər çap edilən informasiyalar, analitik yazılar, müsahibə və açıqlamalar, ayrıca sosial, siyasi, iqtisadi xarakterli rubrikalar, köşə yazıları və s. onların hər biri yüksək dizayn üslubunu təqdim edir və bu yeniliklərimiz dəyərli oxucularımız tərəfindən yüksək qiymətləndirilir.

Həmçinin, qəzet, sayt, internet televiziyası fonunda eyniadlı böyük media qrupuna çevrilən "SƏS"in sosial şəbəkələrə çıxış imkanları kifayət qədər genişdir və ölkə daxilində və xaricində on minlərlə izləyiciləri var ki, YouTube, Facebook və s. şəbəkələrdə canlı yayımlarımızı, xəbər bülletenlərimizi izləyənlərin də sayı durmadan artır. Qeyd edim ki, qəzetimizin 32 illik yaşı ilə yanaşı "SƏS" İnternet Televiziyasının (sestv.az) da 12 yaşı tamam olur. Belə ki, "SƏS" Media Qrupunun tərkibində 2011-ci ildə yaranan televiziya tezliklə öz ətrafında çox böyük izləyici auditoriyası toplayıb. Bu yeniliklərin hər biri isə bilavasitə tarixi "SƏS" qəzetinin qlobal dünyanın çağırışlarına qoşulmasının göstəricisidir. Bax, bütün bu həqiqətlər bizlər üçün böyük şərəf, tükənməz fərəh hissləri olmaqla yanaşı, həmçinin mövcud fəaliyyətimizin də stimullaşdırıcısıdır.

Şübhə yoxdur ki, "SƏS"in kollektivi yeni informasiya texnologiyalarını mənimsəmək sahəsində və Azərbaycan mətbuatının inkişafı yolunda növbəti həlli vacib çoxsaylı vəzifələrin öhdəsindən də bacarıqla gəlməyi qarşıya məqsəd kimi qoyub. Çünki "SƏS"in 12 il öncə keçirildiyi 20 illik yubileyində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bizə təbrik məktubunda öz tarixi kəlamları ilə məsuliyyətimizi daha da artırıb. Təbrik məktubunda ölkə başçısı vurğulayıb: "Azərbaycanın ilk müstəqil mətbuat orqanlarından olan "SƏS" qəzetinin kollektivini fəaliyyətə başlamağı 20 illik yubileyi münasibətilə təbrik edirəm. İlk nömrəsi gərgin ictimai-siyasi proseslərin cərəyan etdiyi mürəkkəb dövrdə, 1991-ci ilin yanvarında işıq üzü görmüş "SƏS" qəzeti qısa zamanda əsl müstəqil və demokratik mətbuat nümunəsinə çevrilmişdir. Cəmiyyətdə siyasi plüralizmə böyük ehtiyac duyulduğu həmin illərdə, qəzet müxtəlif ictimai-siyasi dairələrin, sağlam düşüncəli vətənpərvər ziyalıların tribunasına çevrilmiş, vətəndaşları narahat edən məsələləri, dövrün aktual problemlərini cəsarətlə ictimai müzakirəyə çıxarmış, müxtəlif yönlü təqib və təzyiqlərə baxmayaraq öz mübariz mövqeyindən geri çəkilməmişdir".

Prezidentimiz təbrik məktubunda qeyd edib ki, müstəqillik illərində Azərbaycanda demokratik dəyişikliklərlə yanaşı, söz və məlumat azadlığı da inkişaf edib, kütləvi informasiya vasitələrinin sərbəst fəaliyyəti üçün geniş imkanlar yaranıb. "Yeni şəraitdə Azərbaycanın digər mətbuat orqanları arasında özünəməxsus dəst-xətti və mövqeyi ilə seçilən "SƏS" qəzeti də iş prinsiplərini zamanın tələblərinə uyğun qurараq, cəmiyyət həyatının bütün sahələrini, ictimai maraq kəsb edən aktual mövzuları həmişə diqqət mərkəzində saxlamış, milli dövlətçilik ənənələrinin əsl təbliğatçısı olmuş, öz oxucu auditoriyasının informasiya ehtiyacını ödəməyə çalışmışdır. Ümummilli Lider Heydər Əliyev mətbuatda plüralizmin formalaşmasına və inkişafına mühüm töhfə vermiş "SƏS" qəzetinin fəaliyyətini və cəmiyyət qarşısında xidmətlərini daim yüksək qiymətləndirmişdir", - deyə tarixi təbrikdə vurğulanmışdı.

Ölkə Prezidenti fəaliyyət göstərdiyi bütün dövrlərdə öz amallarına sadiq qalmış "SƏS" qəzetinin kollektivinin bundan sonra da həqiqət carçısı olacağına, ictimai maraqların, milli-dövlətçilik mənafelərinin qorunmasında yüksək peşəkarlıq və prinsipiallıq göstərərək, xalqımızın mütərəqqi mətbuat ənənələrini layiqincə davam etdirəcəyinə inandığını vurğulayaraq, öz təbriklərini qəzet kollektivinə çatdırıb. Əlbəttə ki, iftixar və qürur doğuran məqamdır ki, Prezident İlham Əliyev ölkə mətbuatı tarixində ilk olaraq, məhz müstəqil media orqanına xüsusi təbrik ünvanlayıb, qəzetimizin qocaman işçilərini müxtəlif fəxri adlara layiq görüb və mükafatlandırıb.

***- Bəhruz müəllim, biz də tarixi "SƏS" qəzetini, Sizi və kollektivinizi 32-ci yaş günü ilə bağlı səmimi-qəlbdən təbrik edir, "SƏS"inizin daim zirvələrdən gəlməsini arzulayır və əlbəttə ki, sizlərdən yenicə qarşıladığımız 2023-cü ildə yeni-yeni layihələrinizi, uğurlarınızı maraqla gözləyirik...***

- Çox sağ olun, diqqətinizə və maraqlı suallarınıza görə minnətdaram.

# "Qərbi Azərbaycana qayıdış bu insanların haqqıdır"



"Qərbi Azərbaycana qayıdış Zəngəzurun, İrəvanın, Göyçənin didərgin salınmış əsl sahiblərinin öz ata-baba yurdlarına yenidən sahib çıxması mürəkkəb tarixi-siyasi prosesdir və köklü konseptual yanaşma tələb edir". Bu sözləri SİA-ya açıqlamasında deputat Bəhruz Məhərrəmov deyib.

Onun sözlərinə görə, bu baxımdan, Prezident İlham Əliyevin keçən ilki doğum günündə Qərbi Azərbaycan İcmasının nümayəndələri ilə görüşməsi prosesin çox mühüm bir fazasına qədəm qoyulmasından xəbər verir: "Əlbəttə, həmin tarixə qədər artıq cənab İlham Əliyev Qərbi Azərbaycana dönüş məsələsini dəfələrlə gündəmə gətirmiş və bu konsepsiyanı hücum siyasətimizin mühüm bir elementinə çevirmişdi.

Xatırlayırsınızsa, 2020-ci ilin martın 4-də Tovuzda Tarix-Diyarşünaslıq, həmin il iyunun 3-də isə Tərtərdə Dövlət Rəmzləri Muzeylərinin açılışında Prezident İlham Əliyev asılmış xəritələrə baxaraq Qərbi Azərbaycandakı tarixi adların düzgün yazılmasını tələb etmişdi. Eyni zamanda dövlət başçısı media mənsubları və ictimaiyyət nümayəndələrinə hazırda Ermənistanın ərazisindəki qədim Azərbaycan yurd yerlərinin tarixi adlarından istifadə etməyə çağırmışdı. Ötən il yanvarın 12-də yerli televiziya kanallarına müsahibəsində isə cənab İlham Əliyev Qərbi Azərbaycanın Ermənistana verilməsi, Zəngəzurla bağlı şəxsi tarixçəsi, habelə Naxçıvanda əslən Zəngəzurdan olan babasının məzarını ziyarət etməsi ilə bağlı fikirləri artıq möhtərəm Prezidentin bu istiqamətdə aydın yol xəritəsinə malik olduğunu göstərirdi".

Deputat sözlərinə belə davam edib: "2022-ci il dekabrın 24-də Qərbi Azərbaycan icması ilə görüşdə isə artıq konkret tapşırıqlar qoyuldu. İlk növbədə mükəmməl qayıdış konsepsiyasının hazırlanması, bu istiqamətdə hüquqi-siyasi tədbirlər planın müəyyən olunması, informasiya siyasətinin konturlarının müəyyən olunması kimi ciddi vəzifələr müəyyən olundu. Əlbəttə, dövlət başçısının bu addımları bizim Ermənistana ərazi iddiamız deyil, lakin eyni zamanda da unutmamalıyıq ki, 300 mindən artıq insanın öz yurd yerinin iddiasından da imtina edilməyəcək. Zəngəzura, İrəvana, Göyçəyə, Dərələyəzə, bir sözlə Qərbi Azərbaycana qayıdış bu insanların haqqıdır və hər kəs də əmin olsun ki, Azərbaycan dövləti də dünya azərbaycanlılarının yeganə mərkəzi, Prezident İlham Əliyev isə tək lideri kimi hansı yolla olur-olsun, bu qayıdışın ləyaqətli formada reallaşmasını təmin edəcək".

***Ayşən Vəli***

# "20 Yanvar faciəsini dünyaya çatdırmaq istiqamətində xeyli işlər görülüb"

"Azərbaycan ötən müddətdə 20 Yanvar faciəsini dünyaya çatdırmaq istiqamətdə xeyli işlər görüb. Ölkə rəhbərliyinin tapşırığına əsasən, səfirlik, diaspor, xaricdə yaşayan azərbaycanlılar davamlı olaraq bu istiqamətdə açıqlama və bəyanatlar veriblər, müxtəlif dillərdə mətbu nəşrlər qələmə alınıb". Bu sözləri SİA-ya açıqlamasında deputat Ceyhun Məmmədov deyib.




Onun sözlərinə görə, bu istiqamətdə xeyli işlər görülüb: "Amma biz gördüyümüz işləri tam yetərli hesab etmək olmaz. Hesab edirəm ki, daha da ciddi addımların atılmasına ehtiyac var. Eyni zamanda, burada biz 20 Yanvarla bağlı məsələlərdə ermənilərin rolunu da xüsusi qabartmalıyıq. Yəni, bu gün dünyada ermənilər hər bir məqamdan bizim əleyhimizə istifadə edirlər".

Deputat sözlərinə belə davam edib: "Hesab edirəm ki, 20 Yanvar faciəsində də ermənilərin rolu, atdığı addımlar, gördüyü işlər, o prosesdə onların rolu ilə bağlı kifayət qədər yer verməliyik və həssas bir yanaşma nümayiş etdirməliyik. Yəni, hesab edirəm ki, hazırkı dövrdə bu məsələ çox önəmli və vacib bir məsələdir. Tarixdən də hər birimizə məlumdur ki, ermənilər bundan hər zaman məharətlə istifadə ediblər və biz də öz fəaliyyətimizdə bu məsələlərə çox həssas və diqqətlə yanaşmalı, prosesə öz töhfəmizi verməyə çalışmalıyıq, çünki bu, olduqca önəmli bir məsələdir".

***Ayşən Vəli***

# “Səs” qəzeti 32 illik müstəqilliyimizin yazılı arxividir!

## Ölkənin aparıcı KİV rəhbərləri "Səs" qəzetinin 32 illik yaradıcı fəaliyyəti barədə fikirlərini bölüşüblər




Alqış Musayev,
**“Yeni Azərbaycan” qəzetinin Baş redaktoru**

- ”Səs” qəzeti yarandığı gündən ölkə mətbuatında xüsusi yeri, xalq-dövlət arasında əlaqələrin inkişafı üçün nəzərəçarpacaq fəaliyyəti ilə seçilib. 32 il az müddət deyil. Və bu müddətdə siyasi kursunu dəyişməyən azsaylı mətbu orqanların arasında ”Səs” qəzetinin adının olması çap mediamızın tarixində təqdir edilir. ”Əlincə” Xeyriyyə Cəmiyyətinin rəsmi orqanı kimi fəaliyyətə başlayan qəzet



1992-ci ildə 91 ziyalının Heydər Əliyevə müraciəti və həmin müraciətə cavabı məhz ”Səs” qəzetində dərc edilmişdi. Bu, ”Səs” qəzetinin güclü iradəyə, mütərəqqi ideyalarla fəaliyyət göstərməsindən irəli gəlirdi.

Bu gün 32 yaşlı ”Səs” qəzeti inkişaf tarixini yaşayır. Əminəm ki, bundan sonra da ”Səs” dövlətçiliyimizin keşiyində duracaq, cəmiyyətin maarifləndirilməsində öz sözünü deməyi bacaracaq. ”Səs” kollektivini təbrik edir, gələcək fəaliyyətində uğurlar arzulayıram.

Vüqar Rəhimzadə,
**“İki Sahil” qəzetinin Baş redaktoru**

”Səs” qəzeti Azərbaycan mətbuatında özünəməxsus yeri olan qəzetdir. Bu qəzet Azərbaycanın ən çətin dövründə yaranıb, hansı ki, dövlətimizin özünün taleyi sual altında idi. ”Səs” qəzeti öz cəsarətli sözü ilə, öz qələmi ilə o çətin anları yaşadı və tarixə yazdı. Müstəqil mətbuatımızın ilk nümunələrindən biri olan ”Səs” qəzetinin kollektivi mətin və mərdanə şəkildə o çətin tarixi dövrdə öz sözünü dedi. Bizim ”İki Sahil qəzeti”



ondan bir neçə ay sonra fəaliyyətə başladı və yadımızdadır ki, ”Səs” çox ağır şəraitdə öz prinsiplərini müdafiə etdi və öz adını tarixə yazdırdı. Bu qəzet Azərbaycan xalqı naminə, Azərbaycan dövləti naminə o siyasi proseslərdən şərəflə keçərək şərəfli tarixi yaşayıb və bu günkü günə gəlib çatıb. Ulu öndərimizin təzyiqlərə, böhtanlara məruz qaldığı vaxtlarda ”Səs” qəzeti onun səsini xalqa çatdırdı və ümumilli liderlə xalq arasında bağ rolunu oynadı.

Eyni zamanda, ”Səs” qəzeti Yeni Azərbaycan partiyasının yaranmasında, təşkilatlanmasında, ideoloji işin həyata keçirilməsində böyük rol oynadı. Qəzet dövlətçiliyin təbliğində, xaqlın səsinin çatdırılmasında həmişə fəal olub, haqq-ədalətin çarçısına çevrilib. Bu gün də ”Səs” qəzeti dönməz şəkildə bu prinsiplərə, bu ideologiyaya sadiq qalaraq öz fəaliyyətini uğurla davam etdirir. Müstəqillik tariximizlə yaşıd olan bu qəzet 32 ilin tarixini öz səhifələrində, öz arxivində yaşadır. Getdikcə müasirləşən, inkişaf edən, əhatə dairəsini genişləndirən bu media orqanı bu gün də öz oxucularını qoruyub saxlayır.

Mən ”İki Sahil” qəzetinin kollektivi adından ”Səs” qəzetinin bütün kollektivini- başda baş redaktor Bəhruz Quliyev olmaqla- təbrik edir, qəzetinizə uğurlar arzulayıram, əminəm ki, nə qədər ki Azərbaycan xalqı var, Azərbaycan dövləti var bu qəzet də var olacaq.

32 yaşınız mübarək əziz ”Səs”çilər.

Sevinc Seyidova
**”Həftə İçi” qəzetinin Baş redaktoru**



”Səs” qəzeti ölkəmizin media aləmində daim öz dəsti-xətti ilə seçilib. 32 illik mövcudluğu dövründə çoxminli oxucu auditoriyasını öz ətrafında cəmləşdirməyi bacarıb. ”Səs” qəzeti fəaliyyət göstərdiyi bu illər ərzində ölkəmizdə və dünyada baş verən proseslərə peşəkar yanaşması, mövzularının aktuallığı, dərin araşdırmaları ilə diqqəti cəlb edib. Xüsusi vurğulanmalıdır ki, qəzet daim dövlətçilik maraqlarından çıxış edib, bu məsələdə öz prinsipiallığını hər zaman qoruyub. Hətta ölkəmiz üçün ən çətin anlarda belə, ”Səs” qəzetinin bu duruşu və mövqeyi dəyişməz olaraq qalıb.

Bu səbəbdəndir ki, hazırda ölkəmizdə fəaliyyət göstərən və dövlətin daimi diqqət və qayğısı ilə əhatə olunan çap media orqanları arasında ”Səs” qəzeti də öncül yerlərdən birini tutur. Müasir dövrdə çap mediası ilə onlayn medianın təmərküzləşməsi fonunda ”Səs” qəzetinin bu mərhələni də uğurla adladığını söyləyə bilərik.

Bu gün ”Səs” qəzetində peşəkar jurnalistlər və yaradıcı heyət fəaliyyət göstərir. Jurnalistlərin etik davranış kodekslərinə riayət edilməsi də bir çoxları üçün örnək sayıla bilər. Bir daha Baş redaktor Bəhruz Quliyevin timsalında ”Səs” qəzetinin bütün kollektivini təbrik edir, gələcək fəaliyyətlərində uğurlar arzulayıram.

Tapdıq Abbas
**“Paralel” qəzetinin Baş redaktoru**



Əvvəlcə, ”Səs” qəzetinin 32 illik yubileyi münasibətilə bütün kollektivi və Baş redaktor, hörmətli Bəhruz müəllimi təbrik edirəm, yaradıcılıq uğurları arzulayıram. Digər qəzetlərlə müqayisədə ”Səs” qəzetinin özəl üstünlükləri olduğunu qeyd etmək lazımdır. Qəzetin rəhbərliyi və kollektivi bütün dövrlərdə daim dövlətçiliyi müdafiə edib. Qəzet yarandığı gündən Ermənistanın ölkəmizə qarşı işğalçılıq fəaliyyətini və onların xarici havadarlarının ifşa olunmasını diqqətdə saxlayıb. 1991-1994-cü illərdə Birinci Qarabağ müharibəsində Beyləqan özünümüdafiə batalyonunda düşmənə qarşı döyüşərkən, Beyləqan-Xocavənd cəbhəsində gedən döyüşlər barədə ”Səs” qəzeti müntəzəm döyüş xəbərləri dərc edib. 1992-ci ilin fevralında erməni quldur silahlı dəstələri tərəfindən Salakətin, Qaradağlı və ondan sonra törədilən digər faciələr barədə operativ məlumatları ilk dərc edən qəzetlərin sırasında ”Səs” qəzeti olduğunun şahidiyəm. 2016-cı ilin aprel döyüşləri və 2020-ci il 44 günlük Vətən müharibəsində Azərbaycanın Şanlı Ordusunun və Orduya rəhbərlik edən Ali Baş Komandanın Ermənistana qarşı döyüşlərdə əldə etdiyi möhtəşəm qələbənin ölkə və dünya ictimaiyyətinə normal təqdim olunmasında ”Səs” qəzeti kollektivinin gərgin əməyi qeyd edilməlidir. Bir sözlə, ”Səs” qəzeti fəaliyyət göstərdiyi 32 il ərzində çox şərəfli və çətin yol keçib. Qəzet bu gün də çətin və şərəfli missiyasını uğurla davam etdirir. Azərbaycan dövlətinin demokratik inkişaf yolunda daha böyük uğurlara nail olması üçün bundan sonrakı fəaliyyətində ”Səs” qəzetinin kollektivinə müvəffəqiyyət arzu edirəm!

Müşfiq Ələsgərli
**Jurnalistlərin Həmkarlar İttifaqının sədri, media eksperti**

- ”SƏS” qəzeti uzun illər - 32 il fasiləsiz nəşr edilən, özünəməxsus informasiya siyasəti olan azsaylı KİV-lərdəndir. Qəzetin fəaliyyətində məlumatlandırma və maarifləndirmə işi əsas xətt kimi keçir. Bununla yanaşı, ”SƏS” qəzetinin adı, həm də ”Azərbaycanın dövlət maraqları” ifadəsi ilə assosiasiya olunur. Qəzet yarandığı andan bu günə qədər istisnasız olaraq Azərbaycanın dövlət maraqlarının yanında yer tutub. Azərbaycanın müstəqilliyi üçün çalışaraq öz xidmətlərini göstərib. Ümumilikdə baxanda, ”SƏS” qəzetinin yaranışı Azərbaycanın müstəqillik ta-



rixi ilə demək olar ki, bərabərdir. Bu da təsadüfi deyil. Çünki qəzet 1990-cı illərin əvvəllərində Azərbaycanın müstəqilliyi elan olunan anda müstəqillik hərəkatına dəstək vermək üçün yaradılıb. ”SƏS” qəzeti Azərbaycanın müstəqillik əldə etməsi üçün çalışan insanların, təbəqələrin, qrupların ruporuna çevrilib. Bu gün də öz missiyasına sadiqdir. Təsadüfi deyil ki, Ulu Öndər Heydər Əliyev də ”SƏS” qəzeti haqqında çox yüksək fikirlər səsləndirib. Mən ”SƏS” qəzetinin rəhbərliyini və kollektivini təbrik edərək onlara uğurlar arzu edirəm. Necə ki, 32 ildə müstəqil və demokratik Azərbaycan dövlətinin yanında olublar, bundan sonra da öz missiyalarını davam etdirmələrini, daimi olaraq xalqın, dövlətin, müstəqilliyinin ruporu olmalarını arzulayıram. İnanıram ki, belə də olacaq. Çünki qəzetin idarəçilyi əmin əllərdədir.

Emin Həsənli,
**“Hərbi and” qəzetinin Baş redaktoru**

”Səs” qəzeti demək olar ki, müstəqil Azərbaycan Respublikası ilə eyni yaşdadır. Yarandığı gündən dövlətçilik maraqlarına və



Ulu Öndər Heydər Əliyev ideallarına sədaqət nümunəsi göstərən ”SƏS” qəzeti bu gün də ölkə Prezidenti İlham Əliyevin xalqa, dövlətə xeyirli, gərəkli siyasətinin fəal təbliğatçılarındandır. Birmənalı şəkildə qeyd etmək olar ki, Azərbaycanın mətbuat tarixində ”Səs” qəzetinin özünəməxsus yeri və rolu var. ”Səs” qəzeti müstəqil və suveren Azərbaycan uğrunda fədakarcasına mübarizə aparıb. Tutduqları bu şərəfli və məsuliyyətli yolda ”Səs” qəzetinin bütün əməkdaşlarına ən xoş arzularımı çatdırır və onlara yaradıcılıq uğurları arzulayıram.

***Gülyanə***

# Yazdır, Şəhid Anası - POEMA

**Öz müstəqilliyi və tərəqqisi üçün, öz şöhrətinin ən parlaq illəri üçün Azərbaycanın əbədi borclu olduğu Ulu Öndər Heydər Əlirza oğlu Əliyevin zəka və iradəsinin varisi, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Heydər oğlu Əliyevin şərəfinə**



44 günlük o döyüş....
İgidlərin ölümü
Bizi yaman incidir,
Bizi yaman ağrıdır.
Bir gecənin içində
Analar neçə dəfə
Ağır yuxular görür:
Görür, oğlu can verir!-
Oğulların ölümü
Həqiqidir, doğrudur.
Analar bu yuxuya
İnanmaq istəmirlər.
Tez, hövlanak oyanıb,
Sağa, sola boylanıb,
Oğul da gözləmirlər.
Haldan-hala düşürlər:
Huş aparır, yatırlar.
Analar yuxuda da
Dərdə, qəmə batırlar.

***

... Çox əzablar çəkmişik,
Büruzə verməmişik,-
Qəlbimizdə ağlayıb,
Qəlbimizdə çökmüşük.
İkibaşlı qartalın
Sinəmizdə oturub
Canımızı diddiyi,
Qanımızı içdiyi
O dəhşətli zamanlar...
O ahlar, o amanlar...
... Kəmərlərdə çürüyən,
Bizim o qotaz-qotaz
Körpələrin naləsi,
Əzabı, işgəncəsi.
İnsanlığı sarsıdan,
Heç ağıla gəlməyən,
Sərhəd, hüdud bilməyən,
Erməni barbarlığı,
Erməni murdarlığı.
Yaradan özü bizə
Səbr əta eləsin,
Dözüm versin, tab versin,
Mənim bu sualıma
İşimizə qarışan,
Artıq-əskik danışan
“Bacılar” cavab versin:
- Xalqımın ilk əsgəri,
Xalqımın ilk şəhidi,
Ümidsizlik fəryadı
Dünyaları bürüyən,
Kəmərlərdə çürüyən
O məsum bir körpənin
Nə günahı var idi?!..
Bağça uşağı idi:
Onun bu gen dünyadan
Umacağı nə idi?!
O bir evin, ocağın,
Xoşbəxtlik tacı idi.
Bir tikə mehribanlıq,
Sevgi möhtacı idi.
Səhərdən axşamacan
Özü kimi balaca
Körpə dostları ilə
Atılıb-düşürdü o.
Gülüb-güləşirdi o.
O hələ dünya nədir,
Sülh nədir, dava nədir
Bilmirdi, anlamırdı.
O günəşə, işığa
Çıxmağa tələsirdi.
Oyuncaq maşınını,
Kuklasını gəzirdi.
Ölüm nədir bilmirdi,
Ölümə inanmırdı...
O niyə ölməliydi?

***

...Son nöqtələr olmadı.
O dəhşətli zamanlar
Daha nələr olmadı?
... Qanlı 20 yanvar!
... Xocalı faciəsi!-
Erməni barbarlığı,
Erməni murdarlığı.
Dünyanın ortasında
Dünyanı heç nə sayıb,
Allahın özündən də
Çəkinməyib, qorxmayıb,
Əlindən, ayağından
Divara mismarlayıb,
On üç yaşlı qızımın –
Şirin-şəkər balamın,
O südəmər balamın
Dərisini soydular,
Gözlərini oydular.
Balamın əzabından
Kaftarlı, fahişəli
Haylar həzz alırdılar.
O dərisi soyulmuş
O gözləri oyulmuş
Balam ölənə kimi
Onlar əl çalırdılar,
Balam ölənə kimi. –
Soyulmuş bədəninin
Sulu-sulu son qətrə
Qanı gələnə kimi
Şərablardan içdilər. –
Xumarlanıb uyudular.
Şad-xürrəm, kefli-kefli,
Bir-birinə göz vurub,
Saatlarını qurub
Saniyələr ötürüb
Dəqiqələr saydılar...

***

Ay humanist, sülhpərvər,
Ləyaqətli xilaskar
Avropalı cənablar!
Budur, budur, bax budur
İnsanlığı sarsıdan.
Heç ağıla gəlməyən
Sərhəd, hüdud bilməyən
Erməni barbarlığı,
Erməni murdarlığı.
Bəşərə təhlükədir,
İnsanlığa ləkədir
Erməni mövcudluğu,
Gerçəkliyi, varlığı.

***

...Deyirlər Əmir Teymur
Buralardan keçəndə,
Dəstəmazını alıb,
Namazını da qılıb,
Kefi kök, damağı çağ
Bulaqdan su içəndə,
Erməni casusundan
Necə murdarlıq görüb,
Bütün ermənilərin
Qətlinə fərman verib.

Əmirin qərarından
Göylər də razı qalıb.
Yer üzünə dünyaya
Gur işıq, nur ələyib.
Əmirin öz anası
Ordunun qabağında
Ləçək açıb Əmirdən
İnsaf, imdad diləyib.
Türk oğlu anasının
Sözünü, ricasını
Göylərdən, səmalardan
Aşağı endirməyib –
Ananı sındırmayıb.
Bunu öz qüruruna,
Şanına, şövkətinə
Əsla, rəva görməyib –
Sonuncu ermənini
Saxlayıb, öldürməyib.

***

... Son nöqtələr olmadı,
O dəhşətli zamanlar
Daha nələr olmadı?!
... Torpaqların işğalı,
Bir milyon qaçqınımız.
...Cəllad əsirliyində
Neçə gəlin, neçə qız...

***

(Belə danışan yerdə,
Qoy məni vurğun vursun,
Dilim, ağzım qurusun.)
...Düşmən əsirliyində,
“Gəlin-qız” deyiləndə
Əskik oğullar kimi
Dünya bizə baxırdı.
Qeyrət bizi boğurdu.
Belə yaşamaq bizə
Ölümdən də betərdi.
... Məqam çatdı, yetişdi,
Nə fürsət axtarıldı,
Nə “İZİN” yada düşdü.
Ali Baş Komandanım
Əmr etdi, qərar verdi.
Komandan alqışlandı,
Ağır döyüş başlandı.
Ağ qanadlı mələklər,
Göylərdə dövrə vurdu.
Ayıq-sayıq 44 gün,
Başımızın üstündə
Burda, keşikdə durdu.
Yağı nəfəs dərməmiş,
İlk saatdan, ilk andan,
Ağır toplar gurladı,
Düşmən düşdü amandan...

***

...Hərbi komissarlıqda,
Azərbaycan bayrağı
Şəstlə dalğalanırdı.
İntizamla, nizamla,
Qətiyyətlə, inamla
Növbələr uzanırdı.
Oğullar tələsirdi –
Düşmənə zərbə vurub
Qələbələr çalırdı,
Zəfərlər qazanırdı.

***

...Onlar tək-tək öldülər!
Özləri tək-tək ölüb
Xalqımın, millətimin
Ruhunu diriltdilər.
Xəcalət tərimizi
Alnımızdan sildilər.
Onlar tək-tək öldülər!
O qəhrəman şəhidlər!
O mehriban şəhidlər!
Yer üzündə, dünyada
Çox qan-qada gördülər,
Çox şər-xəta gördülər,
Bizi bəyənmədilər,
İlahi dərgahına,
Göylərə çəkildilər.

***

Ay şəhid anaları!
Ay şəhid ataları!
Zəfər bayramlarında,
Hamıdan çox sevinin.
Başınızı dik tutun.
Allah eləməsin!...Mən
Tapşırmıram, demirəm
Heç vaxt unudulmayan
İnsanları unudun.
Bizim eldə, obada,
İnsanlığı yaşadan,
İnsanların həyatda
Təmiz, düz ilqarıdır.
Analar həssas olur:
Bu gün, bu bayram günü
Anaların hamısı
Şəhid analarıdır.

***

...Üfüq alışıb-yanır,
Vətən nura boyanır.
Qələbənin dadını
Duyub yaşamaq üçün
Döz, dur, şəhid anası!

Qapılma qəmə, dərdə:
Bilirəm, bu gün sənə
Dünyanı versələr də
Azdır, şəhid anası!

...Günəş salama gəlir,
Torpaq da üzə gülür.
Yazdır, şəhid anası!

***Valeh Sefiyev***
***Müəllif: Ziya Hikmət oğlu***



# Nümunəvi ömür yolu...

## *Sevda Ağazadənin həyatından bir epizod*

**Dilimizin inkişafında ədəbi simaların nitq üzrə tədqiqatlarının aparılması zəruridir. Azərbaycanda jurnalist məktəbinin mühüm tərkib hissəsi olan əməkdar artist Sevda xanım Ağazadənin yaradıcılığının öyrənilməsi ciddi aktuallıq kəsb edir. Sadəliyi və sadə olduğu qədər dərin zəkası, düşüncə qabiliyyəti ilə biz gənclərə nümunə olan Sevda xanımın ömür yolunu həyəcandan titrəyən əlimlə vərəqləməyə çalışdım.**

5 yaşında ikən aparıcılığı bəyənib, seçən Sevda xanımın səsi sonralar televiziyadan gəlir. Həyatının ən gözəl çağını demək olar ki, bütün ömrünü o, televiziyaya həsr edir.`Taleyinin 40 ili mili televiziya ilə bağlı olan Sevda xanım Ağazadə 1984-cü ildə 300 nəfərin içərisindən seçilib radioya gələrək günəş kimi parladı. 3 aydan sonra onun səsini bəyənib televiziyaya dəvət edirlər. 1985-ci il martın 10-da ilk dəfə televiziyaya çıxaraq, 15 il xəbərlər oxuyan əməkdar artist, mülayim xasiyyətli, ağbəniz Sevda xanım Ağazadənin ecazkar səsi hamını heyran edir. ”Həyatın bir anı”, ”Kinoalmanax” və s. verilişləri ilə ən əsası gözəl məlahətli səsi, nitqi, gözəlliyi ilə tamaşaçını böyük sevinclə ekrana yığmağı bacardı. Bu səsin ahəngində xəyala dalır, gah kövrəlir, gah da sevinirsən. Bu məlahətli səsdən ayrıla bilmirsən. Bu həlim səsin sahibi hamının çox sevdiyi gözəl Sevda xanım anamı həmişə cəlb edirdi. Onun apardığı verilişi səbirsizliklə gözləyirdi.

Mən taleyimdən çox razıyam! Bu gün Teleradio Akademiyasında təhsil alaraq, Sevda xanımdan nitq mədəniyyəti dərsi alıram. Sevda xanım çox vaxt özü tələbələrinin arasında olmağa, onların qayğı və problemləri ilə maraqlanmağa çalışır. Bütün həyatı boyu gəncliyə daim diqqət və qayğı göstərən, gəncliyi özünə yaxın dost bilən Sevda xanım Ağazadənin həyatından bu adicə bir epizoddur.

Böyük müəllimimizdən bir məktəb keçdiyimə görə Allaha minnətdaram bizi daha da yeni layihələrə cəlb etdiyinə görə ona hədsiz sevgimi çatdırıram. Sevda xanımdan eşitmişəm dostları gəncdir məndə bu sıralara qoşulmaq arzusu ilə. Sonda demək istəyirəm: Sevda xanım biz gənclərin Sizə hədsiz ehtiyacı var, Sizin kimi qayğıkeş müəllimimiz olduğuna görə fəxr edirik.

***Günel Məlikli,***
***Azərbaycan TV və Radio verilişləri QSC-nin Teleradio Akademiyasının tələbəsi***

# Ermənilərin azərbaycanlılara qarşı deportasiya və soyqırımı tarixindən

## *Xalçanın üstündən asılan silah*



Sara xalanın hər zaman xatırladığı mağara

Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Milax kəndində İrandan gəlmə olan rəhmətlik Nağı əmi ilə erməni zülmünün nəsib etdiyi yetimçiliklə böyüyən rəhmətlik Sara xalanın özlərinə əllərinin qabarı ilə qurduqları evlərində 5 qız, 1 oğlan övladı böyüyürdü. Onların bu yuvaları uzun illərə başa gəlmişdi. Çünki bu yuva quşun dimdiyində bir-bir daşıdığı saman çöpü misalı ilə qurulmuşdu. 6 uşaq, arxalarında ata-ana, heç bir köməyi olmayan bu insanların yuvalarını çiyinlərində daşıdıqlarını çay daşlarını su yerinə alın tərləri ilə qaraşdırdıqları palçıqla hər gün bir qarış ucaldan zəhmət əlləri qurmuşdu. Bu yoxsul yuvada ən bahalı əşya divara vurulmuş nimdaş, amma ana yadigarı xalçanın üstündən asılmış silah idi. Bu silahı Sara xala həyatı bahasına əldə etmişdi. Onu göz bəbəyi kimi qoruyurdu. Bu silahı bir azərbaycanlı qadının göz bəbəyi kimi qorumasına səbəb amillər var idi. Bu qeyrətli qadına həyatda yaşadıqları "sevdirmişdi" bu silahı. Onu hər gün yatağını açıb yatdığı yerdə - başının üstündə asmasının, o silahın yerinin dəyişilməz olmasının səbəbi vardı. Dəfərlərlə bu ailənin ehtiyacı yaranmışdı, uşaqlardan ağır xəstələnəni olmuşdu, onu həyata qaytarmaq üçün pul lazım olmuşdu, lakin o silah həmin xalçanın üstündən endirilməmişdi, satılmamışdı. Çünki Sara xala öz varlığını o silahda görürdü. Bir tikə çörəyini o silaha görə rahat yeyirdi. Gecə səhərədək başının üstündən asılan o silaha görə gözünü yuma bilirdi.



Uzun illər öncə - 10-11 yaşında köksünə sığıb özü ilə götürmüşdü o silahı. O zaman ki, bu balaca qızcığazın gözlərinin qarşısında gördükləri fonunda düşüncəsində qurtuluş yolu olmuşdu o silah. 10-11 yaşlı uşağın ömürlük psixoloji sarsıntısına çevrilmişdi o silah. Üstündən uzun illərin keçməsinə baxmayaraq hələ də Sara xalanı 10-11 yaşına bağlayan xatirə idi o silah. Onun düşüncəsini didib-parçalayan, bu qadını rahat buraxmayan, azad yaşamasına əngəl törədən, bir an görməsə, ölə biləcəyi anlamına gələn hisslər o silahda gizli idi...

Sara xalanın həyat tarixçəsi barədə mənə Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində blokada ilə bağlı tədqiqat apararkən söhbət əsnasında arxivin əməkdaşı Zülfiyyə xanım danışmışdı. Sara xala Zülfiyyə xanımın həyat yoldaşının nənəsi imiş. Onlar uzun illər bir yerdə yaşayıblar. Zülfiyyə xanım bu qadının gəlini hesab olunub. Ona elə öz anası kimi də qayğı göstərib. Yaşlı vaxtlarında onu yuyundurub. Zülfiyyə xanım Sara xalanın bədənində çoxlu güllə yerləri gördüyünü deyir. Məlum olur ki...

..."Ananın bəxti qızına taxtdır", - deyirlər. Sara xalanın da taleyinə erməni xislətinin hər üzünü görən anasının bəxti taxt olmuşdu. Ömrünün ayrı-ayrı dönəmlərində bir neçə dəfə erməni zülmü ilə qarşılaşmış, son mənzilinə də elə bu dünyadan bir ürək dolu erməni dağı-düyünü apardı bu qadın. Sara xalanın anasıgil 1905-1907-ci illərdə qədim Zəngəzur mahalından ermənilər tərəfindən öz yurd-yuvalarından didərgin salınaraq Naxçıvana pənah gətirən ailələrdən birinin övladı olub. Lakin sən demə, bu ailələrin Naxçıvanda rahat yaşaması cəmi 9-10 il çəkəcəkmiş. Burada da ermənilər onların dincliyini pozacaq, öz əzəli Zəngəzur torpaqlarında olduğu kimu, burada-Naxçıvanda da onların rahat, sakit həyatının qəniminə çevriləçəkdilər. Və o zaman cəmi 10-11 yaşlarında olan Sara xalanın gözlərinin önündəcə dəhşətlər, faciələr yaşanacaqmış.

1916-1918-ci illərdə necə ki, soydaşlarımız Ermənistandan-əzəli torpaqlarımızdan didərgin salınırdılar, həmin proses Naxçıvanda da davam etdirilirdi. Burada yaşayan ermənilər də soyqırımlar törədir, insanların qanını içirdilər. Culfanın Milax kəndində yaşayan insanlar da həmin dövrün erməni zülmünə məruz qalanlardan olmuşlar. O vaxt balaca Sara həmin faciələr içərisində tək-tük qalan, alnına "hələ yaşamalısan" sözləri yazılan insanlardan olubmuş. Erməni vəhşətindən canlarını götürüb Milax yaxınlığındakı mağaralara üz tutan insanlar qanın içərisində oraya çatıbmışlar. Saranın da bədəni güllə mərmilərindən xeyli sayda yaralar alsa da, lakin tab gətirə bilibmiş, o, yaşayıbmış. Bəlkə də təsadüfi bir hadisə baş verməsəydi, o da mağarada ölən yüzlərlə insandan biri olacaqdı. Bu balaca qızcığaz günlərlə o mağarada ac, susuz qalmışdır. Anasının yanında oturub, onu yatmış hesab edən Sara "ana yatma, dur, dur, gedək evimizə. Niyə mənə cavab vermisən?", - deməsinə baxmayaraq anası hələ də uyuyurmuş. Sara belə düşünürmüş ki, anası yatıb, yorğunluqdan yuxudan ayıla bilmir. Axı onlar zalım ermənilərin zülmü ilə dağ-dərə dolaşmışdılar, axır bu mağaraya sığınmışdılar. Həmin vaxt Saranın sığındığı anasının susmuş cənazəsi, bir də mağarada həyatını itirmiş insanların birinin yanından götürüb sinəsinə sıxdığı həmin silah olmuşdu. O, nə anasının yanından uzaq durardu, nə də ki, sinəsindəki silahı yerı qoyurdu. Onu gözü qarşısında törədilən bu faciələrin fonunda yaşadan, həyata bağlayan tək anasının hələ də yatdığını hesab edən düşüncələri, bir də həm özünü, həm də mağarada qanaxmadan dünyasını dəyişmiş və ağrıdan zarıyan yüzlərlə yaralı insanın xilasını gördüyü, sinəsinə sıxdığı silah idi. Ermənilərin bir yandan, yerli əhalidən sağ qalanların isə bir yandan axtardığı didərgin insanlar əksəriyyəti artıq dünyalarını dəyişmişdilər. Sara isə axşamüstünün toranında qorxa-qorxa mağaradan çıxıb yaxınlıqda su tapmaq, anasına gətirmək, "bəlkə su içirsəm oyanar", - düşüncəsi ilə bayıra çıxanda onu kənlilərindən biri görür. Sara ilə mağaraya qayıdır, buradakı fəlakəti görür. Kəndə xəbər aparır, gecə ilə gəlib insanları buradan daşıyıb dəfn edirlər, yaralıları evlərdə gizlədirlər. Qohumlarının əksəriyyətini itirən Saranı isə günlərdir ana-bacısını axtaran, bacısından cəmi iki yaş böyük olan qardaşı Qəzənfərə verirlər.

***

Tarixin bütün dönəmlərində düşməni yerində oturtmağı bacaran naxçıvanlılar bu dəfə də düşmənə qarşı mübarizə aparmışlar. İtkiləri, yaralıları, dağılan evləri-eşikləri saysız şəkildə olsa da, kəndlərini tərk etməmiş, orada qapıların ağzına yerləşdirilmiş ermənilərlə yenə də birlikdə yaşamışlar. Dəfələrlə törədilən belə hadisələr, torpaqsız ermənilərin fitnə-fəsadı dözülməz olsa da, sovet imperiyasının həyata keçirdiyi Pyotrdanqalma siyasətin mahiyyəti məhz belə idi: ermənilər Azərbaycan torpaqlarına yerləşdirilməli, onlarla birlikdə yaşamalı, zaman gəldikdə isə azərbaycanlılara qarşı torpaq iddialarında olmalı, "bura bizimdir, çıxın buradan", - deməli, qan tökməli idilər. Tarixə nəzər salsaq, XIX əsrdə haradan gətirildikləri bilinməyən bu nankor tayfanın torpaqlarımıza yerləşdirilməsi ilə hər 10-15 ildən bir belə soyqırımlarla qarşılaşa bilirik. Tək Naxçıvanda yox, Azərbaycanımızın digər bölgələrində də zaman-zaman minlərlə azərbaycanlı qətlə yetirilmiş, evləri talan edilərək yurd-yuvasından didərgin salınmışlar. 1918-ci ilin mart-aprel aylarında Bakı, Şamaxı, Quba, Lənkəran və digər ərazilərdə erməni qəddarları 50 min azərbaycanlını qətlə yetirmiş, 10 minlərlə insanı öz torpaqlarından qovmuşdular. Təkcə Bakıda 14 min, Zəngəzur qəzasında 3257 kişi, 2276 qadın, 2196 uşaq öldürülmüşdü. 1061 kişi, 799 qadın, 485 uşaq yaralanmışdı. Umumi yaralananların sayı 10 min 68 nəfərə çatmışdı.

1992-ci ildə növbəti dəhşətli soyqırım aktı isə Xocalıda törədildi. İnsanlar qışın bıcaq kimi kəsdiyi 26 fevral gecəsində dağlara üz tutdular. Güllələndilər, səpələndilər düzlərə.Gözləri qandan doymayan düşmən ölənlərin cənazəsinə qarşı vəhşilik törətdi: əlləri, ayaqları kəsildi, gözləri çıxarıldı, dəriləri soyuldu.

Azərbaycan müstəqilliyini bərpa edib dövlətçilik ənənələrinə yenidən qayıtdıqdan sonra öz tarixi keçmişinə siyasi qiymət vermək istiqamətində də bir sıra addımlar atmışdır. Bu sahədə ümummilli liderimiz Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. 1998-ci il 26 mart tarixli "31 mart Azərbaycanlıların Soyqırımı haqqında" Fərmanı azərbaycanlılara qarşı 1918-ci il mart hadisələri zamanı törədilmiş vəhşiliklərin üzə çıxarılmasında mühüm rol oynamışdır. Eyni zamanda baş vermiş hadisələrə həqiqi qiymətin verilməsində mühüm siyasi, hüquqi və tarixi sənəddir. Bu sənədlə ilk dəfə olaraq XX əsrdə mərhələlərlə 1905-1907, 1918-1920, 1948-1953, 1988-1993-cü illərdə azərbaycanlılara qarşı həyata keçirilmiş qırğınların rəsmi olaraq xronikası qeyd edilir və bütün Cənubi Qafqazda azərbaycanlı əhaliyə qarşı etnik düşmənçilik siyasətinin kökləri göstərilir.



Ardı Səh. 13

# Ermənilərin azərbaycanlılara qarşı deportasiya və soyqırımı tarixindən

Əvvəli Səh. 12

***

Həmin müdhiş hadisənin baş verdiyi günlər Milax kəndində yüzlərlə insanın həyatına son qoyduğu kimi, Qəzənfərlə bacısı Saranın da uşaqlığına son qoydu. Onlar bu hadisələrdə uşaqlıqlarını itirdilər. Həmin gündən Saranın əlindən oyuncaqları alındı, əvəzinə mahiyyətini belə dərk etmədiyi, lakin özünü müdafiə edə biləcəyini düşündüyü həmin o silah verildi. O silah ki, Sara ölənədək yatağını xalçanın üzərindən asılan o silahın altında açdı. Həmin gündən Qəzənfər Saraya ata, Sara isə Qəzənfərə ana oldu. Bacı-qardaş idilər, dost da oldular. Onlar dərd ortağına çevrildilər. Qəzənfər günlərlə bacısının bədənindəki güllə yaralarının sağalması ilə məşğul oldu. Kənddəki türkəçarəçi Fatma nənənin dağların-düzlərin gülündən-çiçəyindən hazırladığı məlhəmlər Saranın həyatını xilas etdi. Bu balaca qız çox əziyyətlər çəksə də, günlərlə iniltisi kasıb komalarını ağzına alsa da, yaraları irinləyib onu istilik içərisində gözü qarşısında öldürülən anasının itkisi kimi yandırsa da, dözdü Sara, çünki yaşamalı idi, ona "öl" hökmü verilməmişdi. Bədənindəki yaralar bu körpəni uzun zaman incitsə də, yaşadı...

Zaman keçir. Bəzən onu tutub saxlamaq ən böyük istəyimiz olsa da, o, ötür, ötməlidir də. O dayanmır, irəliləyir. Bizi də öz qanunlarına tabe etdirərək irəliləyir. Zaman Qəzənfərlə Saranı da öz axarı ilə böyüdüb gənc bir oğlana və qıza çevirmişdi. Qəzənfər evlənmişdi. Sara o vaxtlar qonşuluqdakı İrandan kəndə gələn Nağı ilə ailə qurdu. Nağı da ta Vətəninə qayıtmadı. Onlar burada özlərinə yuva qurdular. Özlərinə bir otaq tikənədək Qəzənfərin yanında qaldılar. Sonra öz yuvalarına köçdülər. Saranın qurduğu yuvasına ilk zinəti anasındanqalma köhnə xalçanı otağının divarına vurması, üstündən də o silahı-özü ilə bərabər o dəhşətli hadisəyə şahid silahı həmin xalçanın üstündən asması oldu. Bu ər-arvadın hər il bir qədər genişləndirdikləri evləri 6-8 il ərzində böyük bir ailənin yuvasına çevrildi. Onların 5 qız, 1 oğlanları dünyaya gəldi. Qızları doğulduqca Sara silahına daha çox başlanırdı, onu göz bəbəyi kimi qoruyurdu. Dəfələrlə qohum-qonşuları o silahı istəmişdilər, satmasını təklif etmişdilər. Lakin o buna razı olmamışdı. Hətta bu sözü danışmağı birdəfəlik qadağan etmişdi onlara. Hər kəsə qəlbini-sirrini açmayan bu qadın o silahı dünənədək özü, ailəsi üçün qorumuşdursa, artıq o silah onun 5 qızının namusunun qoruqçusu idi. Sara xalçanın üstündən asılan silahı o günə saxlayırdı ki, 11 yaşında qarşılaşdığı hadisə ilə bir daha qarşılaşarsa, öz əlləri ilə qızlarını öldürəcəkdi, onların düşmənin əlinə keçməsinə izn verməyəcəkdi. O silah bir həyatın keşməkeşlərindən keçən Saranın simasında bütün azərbaycanlı qadınların məfkurəsi, namusunu, mənliyini düşməndən qorumaq, müdafiəsi idi. Sara kimi minlərlə qadınlarımız öz əlləri ilə qızlarını boğub öldürərdilər, lakin düşmənin əlinə keçməsinə razı olmazdılar. Həyatın, taleyin Saraya bəxş etdiyi 5 qız övladının da xilası onun özünün illərdən bəri böyük bir psixoloji qorxu içərisində yaşadığı günlərdə ümidi olan həmin silah idi...

İllər ötürdü... Sara xalanın xalça üzərində ağır-əziz tutduğu silah elə oradanca asılı qalmaqda idi. Çünki hələ ki, ermənilər yerlərində oturdulmuşdular. Sara xalanın qızları isə bir-birinin ardınca öz yuvalarına uçurdular. Oğlunu da evləndirmişdi, gəlinini də gətirmişdi. Lakin həmin silaha əl dəyməmişdi: o yerindəcə asılı qalmışdı... Sara xala isə hələ də yatağını o silahın altında açırdı. O silahın altında, o yatağın içərisində Sara xala qocalıb ahıllıq yaşına çatmışdı.







Bəlkə bu da bir alın yazısı imiş ki, Sara xala 1918-ci ildən düz 70 il sonra - 1988-ci ildə yenidən ermənilərin torpaq iddialarının, düşmənin dəyişməz xislətinin yenidən şahidi olacaqmış. Sara xala o illər hər dəfə sərhədlərimizdə baş verən hadisələri eşitdikcə illər öncəyə qayıdır, başlarına gətirilən hadisələri bir-bir xatırlayır və dərin bir köks ötürürdü. Bəlkə də Sara xala hələ uzun illər yaşayacaqdı, 88-90-cı illərin hadisələri olmasaydı. Kim bilir, bəlkə də onun ömrünü elə uşaqlıqdan içinə sığdırdığı müdhiş bir qorxu qurd kimi gəmirməyə başlamışdı. Onun birdən-birə yatağa düşməsi içinə gömdüyü bu qorxu deyildimi?..

***

1988-ci ildən başlayaraq Azərbaycan yenidən ağır günlərini yaşamağa başladı. Naxçıvan 1989-cu ildən başlayaraq ermənilər tərəfindən dəmiryolunun dayandırılması ilə qısalı-uzunlu zaman kəsikləri ilə blokadaya alınırdı. Bunun ardınca ərazilərindən keçərək Naxçıvana gələn elektrik enerjisinin, qaz xəttinin dağıdılması ilə təbii qaz, elektrik enerjisi tamamilə dayandırıldı. Artıq 1991-ci ilə - Sara xalanın ömrünün son günlərinədək Naxçıvan tamamilə blokadaya alınmışdı. Həmin ağır illərdə bu yaşlı qadının nazını çəkmək onun hər bir övladının, nəvələrinin üzərinə düşürdü. Zülfiyyə xanım da yoldaşının nənəsinin qayğısını çəkənlərdən olub. O zaman kəndlərimiz daha şəraitsiz şəraitdə olduğu üçün Zülfiyyə xanımgil Sara xalanı Naxçıvan şəhərindəki evlərinə gətirmişdilər. Lakin günlər ötdükcə şəhərdə vəziyyət kənddən də ağır olurdu...

Zülfiyyə xanım o günləri göz yaşları ilə xatırlayır: uşaqlar balaca idi, yoldaşım işə gedidi. Qayınatam, qayınanam yaşlı idilər. Sara xala da ki, xəstə-yataqda. Çörək dalınca mən getməli olurdum. Elə olurdu ki, evdən o başdan - saat 6-da çıxırdım, günorta - nahar vaxtına ancaq evə gəlib çatırdım. Növbədə olan insan sırasının ucu-bucağı yox idi. Kəndlərdən də camaat axışıb çörək almaq üçün şəhərə gəlirdilər. Çünki kəndlərdə təndir salıb çörək bişirmək mümkün deyildi. O mənada ki, nə satışda un var idi, nə də kəndlərdə bir təndiri isidib çörək bişirmək vəziyyətinə gətirmək üçün yanacaq. Buna görə də əli qoynunda qalmışdı insanların. Nə edəcəklərini bilmirdilər. Çörək alıb qayıdırdım evə. Baxırdım ki, əl yumağa bir ovuc su yoxdur. Vedrələri götürüb gedirdim çeşməyə. Bəlkə 10 dəfə, 15 dəfə gedib-gəlirdim. Həmişə blokadanın o ağır illərini xatırlayanda məni düşündürən bir məsələ olur - o illərin qış fəsli. İlahi, adam dəhşətə gəlir o qışları xatırlayanda. Bilmirəm, necə izah edim, təsvir edim o qışları. O qədər də qar yağardımı, şaxta olardımı? Həqiqətən də son illər iqlim dəyişikliyi baş verib. İndi kimə 90-cı illərin qışı haqqında danışsaq, vallah inanmazlar. Çünki son illər qış ayları çox mülayim keçir. Ancaq o illərdə küçələrdə 15-20 santimetr buzun üzərində hərəkət edirdik. Evlərin şiferlərindən buz baltaları sallanırdı. Elə ki, noyabr girdi, bir dəfə qar yağdı, vəssalam, həyat dayanırdı, düz marta qədər. Bütün su, kanalizasiya sistemi donurdu. İnsanlar, xüsusilə də qadınlar olmazın çətinlikləri ilə üzləşməli olurdular. Daşıdığımız suları evdə işlədəndən sonra onları bir də vedrə-vedrə bayıra daşıyırdıq. Su daşıyanda əllərim donub hissiyatını itirirdi. Evə gəlirdim, bir isti yox idi ki, əlini tutub isidəsən. Məcbur əllərini qoynuna qoyurdun. Düz bir saata donu açılırdı. Evlər də buz kimi idi. Daimi yanar yox idi. Bu gün tapdınsa bir şey, yanacaqdı, tapmadınsa, soyuqda oturmağa məhkim idin. Əvvəllər odun, çör-çöp tapıb sobanı alışdırırdıq. Sonrakı qışlarda artıq o da qalmamışdı. Çünki insanlar hamısı soyuqla mübarizə aparırdılar. Sonrakı illər camaata neft, salyarka normaları verilməyə başlandı. Allahım, o növbələri xatırlamaq nə qədər dəhşətlidir. Saatlarla talon əlində soyuq havada, ayaq üstündə dayanmalı idin ki, 5-10 litr yanacaq ala biləsən. Yaxşı aldın, bunu maşınkada yandırıb yemək hazırlayasan, sobada yandırıb evi isidəsən?.. Bax o norma ilə bunun hansını etmək isə bir başqa dərd idi.Sonralar artıq mağazalarda baha qiymətə olsa da, un tapılırdı. Elektrik xətləri o qədər yüklənirdi ki, bir də görürdün ki, axşamdan yüksəkgərginlikli xətlərdə qəza baş verib, səhərə qədər təmir edilməyib. Deməli, həmin gün mağazalarda çörək də olmayacaqdı. Məcbur qalıb, həyətdə sacda çörək bişirməli olurduq. Bu mənim üçün çox ağır idi. Çünki köməyim yox idi. Böyük oğlum nə qədər əziyyət çəkdiyimi görürdü. Bir gün sacın başında kündələri bir-bir açıb bişirərkən, oğlum gəldi, bir xeyli baxandan sonra qalxıb evə getdi. Bir azdan əlində bir adyalla qayıtdı. Həmin adyalı çəpər qonşumuz səmtə ağacların budaqlarına bağladı, dedi ki, ana, qoy heç kim görməsin, sənə kömək edəcəm. Həmin gündən sonra o mənim köməkçimə çevrildi. Mən açdım, o sacın üstündə bişirdi. İşim xeyli yüngülləşdi.

O günlərin hansını deyəsən, hansını saxlayasan axı. Dərd bir idi, iki idi? Ətrafda problemli olmayan heç nə yox idiGetsin o günlər, bir də dönməsin, Allah bizlərə o günləri bir də nəsib eləməsin.

***

Beləcə, Zülfiyyə xanım bu qədər ailə qayğıları məngənəsində uzaq məsafədən su daşıyıb, onu min əziyyətlə qızdırıb Sara xalanı yuyunduranda görmüşdü onun bədənindəki güllə yaralarını. Elə bu yaralar da onun Sara xaladan dinlədiyi bir həyat hekayəsinin başlanğıcı olmuşdur ki, Zülfiyyə xanımla ani bir söhbətim zamanı bu həyat hekayəsi yenidən çözülərək qəhrəman bir azərbaycanlı qadının timsalında erməni xislətinin yeni bir səhifəsi ilə tanışlığıma vəsilə oldu. Unudulmayacaq bir səhifə... Bu yazı vasitəsilə gənc nəsillərə çatdırılacaq, onları əsla dəyişilməyən erməni xislətinə hər zaman hazırlıqlı olmağa çağıran bir səhifə... Sara xalanın xalçasının üstündən asdığı silahın mahiyyəti ruhumuza hopmalıdır. Onu məhz anasının əlləri ilə ilmə-ilmə toxuduğu xalçanın üstündən asmasının, bir ömür gözünün önündə saxlamasının, yatağını o xalçanın və o silahın altında açmasının səbəblərini ruhumuza yazmalıyıq. Axıdılan qanların, ömrü yarımçıq qalmış uşaqların, həyatına didərginlik, köçkünlük yazılmış soydaşlarımızın, arzuları torpağa kömülən şəhidlərimizin, evində, həyətində gündəlik həyatını yaşayan, işi-gücü ilə məşğul olan günahsız insanların qətliamını, zaman-zaman Azərbaycanımızdan qoparılan Vətənə həsət torpaqlarımızın naləsi həkk olunmalıdır məfkurəmizə... Unutmamalıyıq, unutmağa haqqımız yoxdur...

***Mətanət Məmmədova***

# İranın zəhərli təhsili






***Böyük İslam sosioloqu İbn Xaldun "coğrafiya xalqların taleyidir" deyir. Yəni, xalqların taleyini təkcə özləri yox, həm də eyni coğrafiyanı paylaşdıqları qonşuları müəyyən edir. Azərbaycanlıların isə qonşu ilə bağlı gözəl atalar sözü var: uzaq qohumdan yaxın qonşu yaxşıdır. Amma başqa bir atalar sözümüz də var: dişin ağrıyır, çək qurtar, qonşun pisdir, köç qurtar. Qonşusu pis olanlar köçüb canlarını qurtarır. Ancaq qonşusu pis olan xalqlar nə köçür, nə də canını qurtara bilir; illərlə, on illərlə pis qonşu ucbatından əziyyət çəkir. Elə bizim kimi...***

Düşmənlə bacarmağa nə var ki ?! Vay o gündən, qonşun da düşmənə qoşula. Üstəlik, özünü dost, qardaş kimi qələmə verib, gənclərini "dini təhsil" adı altında zəhərləyə.İş ondadır ki, müstəqilliyimizi bərpa etdikdən sonra Azərbaycan cəmiyyətinə ideoloji baxımdan nüfuz etmək məqsədi güdən bir sıra xarici dairələr, xüsusilə yaxın qonşumuz bu məsələdə dini təhsil amilindən də yararlanmağa çalışıb.O biri səmavi dinlərdən (Xristianlıq və İudaizm) fərqli olaraq İslam dinində milli təmsilçilik ənənələrinin olmaması, digər tərəfdən İranın İslam dinini öz maraqları kontekstində təbliğ etməsi dini təhsil adı ilə bu ölkəyə üz tutmuş vətəndaşlarımızın yad ideoloji təsirlərə məruz qalması ilə nəticələnib. Bu problem Qum şəhərində təhsil almış azərbaycanlıların baxışlarında daha aydın hiss olunur. Çünki həmin təhsil mərkəzində İslam dini daha çox məzhəb təəssübkeşliyi zəminində, İranın maraqları kontekstində təbliğ edilir.Azərbaycana qayıdan məzunların İranı dini mərkəz kimi görmələri, eləcə də bunu birbaşa və dolayı yolla təbliğ etmələri ciddi narahatlıq doğuran məqamdır. Həmin dini mərkəzdə Azərbaycanda tarixən mövcud olan dini təhsil ənənələrindən fərqli olaraq mənəviyyat, elm, əxlaq, bəşərilik arxa plana keçirilir, əvəzində tələbələrə din adı ilə daha çox regional və qlobal müstəvidə geosiyasi maraqlara uyğun, İranın nüfuz dairəsinin genişlənməsinə xidmət edən, nəticə etibarilə dövlətçilik və milli maraqlarımıza zidd fikirlər aşılanır.Qum dini-elmi hövzəsi adlanan kompleksdə təhsil alan vətəndaşlarımızın əksəriyyəti əl-Məhdi və Əl-Mustafa Beynəlxalq İslam Universitetindən məzun olurlar. Burada İslam dininin şiə məzhəbinin "isna aşariyyə" ("on iki imam") etiqadı zəminində İslam İnqilabının ideya qaynağı sayılan "vilayəti-fəqih" (dini rəhbərin hakimiyyəti) konsepsiyasına uyğun tədris həyata keçirilir.

Həmçinin dini təhsil almış vətəndaşlarımıza təkcə dini biliklər verilmir, Azərbaycanın tarixi, mədəniyyəti, tarixi coğrafiyası, Azərbaycan xalqının etnogenezi barədə xarici maraqlara uyğun təhrif olunmuş məlumatlar da aşılanır, beləliklə, həmin şəxslər ideoloji assimilyasiyaya məruz qalırlar. Tədris zamanı təqaüdlər (şəhriyyə - aylıq məvacib) alan tələbələr Azərbaycana qayıtdıqdan sonra da fəallıqlarından asılı olaraq məvacib almaqda davam edirlər. Burada onların yerli mühitə adaptasiya oluna bilməmələri nəticədə həmin məzunların xaricdən ideoloji asılılıqla bərabər, həm də maddi cəhətdən asılı vəziyyətə düşmələri ilə nəticələnir.

Qumda dini təhsil almış şəxslərin dini təbliğatları üzərində aparılan müşahidələrin təhlilinə əsasən demək mümkündür ki, tələbələrə İslami dəyərlərin və əqidə prinsiplərinin məzhəb maraqları çərçivəsində təlqin olunması ilə yanaşı, həm də məntiq, üsul, fəlsəfə və psixologiya kimi fənlərin tədrisinə ciddi əhəmiyyət verilir. Məqsəd məzunların əxlaqı, mənəviyyatı təbliğ edən din xadimindən daha çox məzhəb maraqlarına uyğun peşəkar təbliğatçı kadrlar kimi yetişməsini təmin etməkdir.

Monitorinqlər zamanı burada dini təhsil almış şəxslərin təbliğatda məntiqi ardıcıllıqla fəlsəfi biliklərindən psixoloji təsir vasitəsi kimi yararlanmaları, bunun ardınca öz fikirlərini Qurani-Kərim ayələri ilə möhkəmləndirmələri onların kütləyə nüfuz edərək inandırma qabiliyyətini artıran amillərdən olduğu müəyyənləşdirilib.

Azərbaycanlı gənclərin İrandakı dini dairələrin vasitəsilə dini təhsil almaq məqsədilə vaxtı ilə üz tutduqları ölkələrdən biri də Suriya idi. Onların əksəriyyəti "Zeynəbiyyə" dini hövzəsində təhsil alıblar. Orada da təhsil şəriət müstəvisində həyata keçirilib. Lakin Suriyadakı məlum vəziyyətlə əlaqədar azərbaycanlıların həmin ölkəyə dini təhsil üçün gedişi artıq dayanıb.

Maraqlıdır ki, 1975-ci ildə iranlı din xadimi ayətullah Məhəmməd Şirazi tərəfindən yaradılmış bu təhsil müəssisəsinin məzunları adətən "siyasətə qarışmayanlar", "ziddi-vilayət", "ziddi-inqilab" kimi təqdim olunurlar. 2001-ci ildən sonra "Zeynəbiyyə"yə Məhəmməd Şirazinin qardaşı Sadiq Şirazi rəhbərlik edib. Bu dini hövzənin məzunlarının təbliğatları və onlarla aparılan fərdi söhbətlərin təhlili göstərir ki, onların bir qismi siyasətə birbaşa qarışmasa da, heç də "İslam İnqilabı" ideyasına və "Vilayəti-Fəqih" konsepsiyasına zidd mövqedə dayanmayıb.

"Zeynəbiyyə" məzunlarının təbliğatlarında bir çox hallarda məzhəb təəssübkeşliyini, digər məzhəbə qarşı aşağılayıcı dünyagörüşünü yaymağa çalışdıqları müşahidə edilir. Digər tərəfdən, dini-siyasi hərəkatlara rəhbərlik etmiş ailənin (Şirazilər ailəsi - 1891-ci ildə İranda Tənbəki üsyanı, 1920-ci ildə İraq üsyanı) mənsublarının təsis etdikləri dini təhsil mərkəzində dinlə siyasətin bir-birindən ayrı tutulması inandırıcı görünmür.Bir sözlə, İranda və bu ölkənin təsiri altında dini təhsil almış şəxslərin bir hissəsi sonradan İranın "dini modelinin" yayılması istiqamətində fəaliyyətə cəlb olunub. Bu gün ölkəmizin dini həyatında "aktivlik" göstərənlərin, xüsusilə dövlətçilik əleyhinə keçirilən tədbirlərdə təşkilatçı qismində çıxış edənlərin mütləq əksəriyyəti vaxtı ilə İranda dini təhsil almış gənclərdir. Bu faktı 2010, 2011 və 2012-ci illərdə guya azanın və hicabın qadağan edilməsi əleyhinə keçirilən etiraz aksiyaları, Nardaran hadisələri, eləcə də cihad adı ilə Suriyada silahlı qruplaşmaların tərkibinə qatılmış şəxslərlə bağlı aparılan araşdırmaların nəticəsi də təsdiqləyir. Son hadisələr, xüsusilə 44 günlük Vətən müharibəsindən sonrakı proseslər göstərdi ki, İranda dini təhsil alan vətəndaşlarımız arasında Azərbaycana qarşı çıxmaq, ölkəmizdə dini əsaslı dövlət qurmaq (Kərimə dövləti) istiqamətində təbliğat aparılır. İranın hazırda əsas məqsədi ölkəmizdə rəsmi Tehranın təbliğatını aparan, dini ideologiyasını yayan şəbəkənin formalaşdırılmasıdır. Uzun illərdir İranda təhsil alan tələbələrin mütləq əksəriyyətinin bu cür zərərli ideologiyanın təsirinə məruz qaldığı şübhəsizdir. Təəssüf ki, indiyədək İranda minlərlə Azərbaycan vətəndaşı dini təhsil alıb və onların bir çoxundan qeyd etdiyimiz məqsədlərlə istifadə olunub....Azərbaycanlıların başqa bir atalar sözü də var: bir yaxşılıq, bir də pislik yaddan çıxmaz. İranın pisliklərini, təbii ki, unutmayacağıq. Zəhərini də, zərərini də bilirik. Onu da bilirik ki, İslam dininə görə qonşunun qonşu üzərində haqqı böyükdür. Görəsən, bunu İranın başbilənləri də bilirmi?!

***Elnarə İslamqızı,***
***dinşünas***



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

# Fransa "insan haqlarından" dəm vurarkən...

Artıq bir aydır ki, Azərbayan ekofəalları Rusiya sülhməramlıları kontingentinin (RSK) müvəqqəti nəzarətləri altındakı ərazilərdə faydalı qazıntıların monitorinqinin həyata keçirilməsi tələbi ilə dinc aksiya keçirirlər. Qarabağdakı cinayətkar rejim və Ermənistan hökuməti hər vəchlə dinc və heç bir humanitar problemlər yaratmayan ekoaksiyanı az qala İkinci dünya müharibəsi zamanı baş vermiş "Leninqrad blokadası" kimi təqdim etməyə cəhdlər göstərir, guya ərzaq qıtlığı və s. "problemlərlə" qarşılaşdıqlarını ətəklərini başlarına qaldırmaqla dünyaya car çəkirlər. Halbuki heç də belə deyil. Aksiya başlayan gündən indiyə qədər yüzlərlə RSK-ya məxsus humanitar məqsədli avtomobillər, eləcə də Beynəlxalq Qırmızı Xaç Təşkilatına məxsus təcili tibbi yardım maşınları Xankəndi və əks istiqamətdən keçməklə heç bir maneələrlə qarşılaşmayıblar. Ancaq buna baxmayaraq, cinayətkar rejimin baş quldurları gah "ərzaq talonu" tətbiqi, gah da digər üsullarla beynəlxalq ictimaiyyət qarşısında "məzlum", "əzabkeş" kimi görünmək üçün dəridən-qabıqdan çıxırlar. Lakin daha bir fakt budur ki, sosial şəbəkələrdə Xankəndi ermənilərinin şəhər restoranlarına, evlərində geninə-boluna yeyib-içmək fotoları, videoları paylaşılır və bütün bunlar əsl reallığı ortaya çıxarır. Beləliklə, Xankəndidə Ruben Vardanyan tərəfindən ssenariləşdirilmiş teatr tamaşası davam edir və bu tamaşa paralel olaraq Azərbaycanın ərazi bütövlüyü və maraqları əleyhinə çıxış edən bir sıra ermənipərəst təşkilatların əllərinə girəvə verir. Bəyanatlar, tvitlər, çağırışlar, narahat olmalar, qayğılanmalar və daha nələr və nələr..!

Belə bir mühitdə özünü ən çox canfəşan kimi göstərən tərəf nə qədər təəccüblü görünməsə də Fransa hakimiyyətidir. Həmin Fransa hakimiyyəti ki, gah Senatı vasitəsi Azərbaycan əleyhinə qətnamələr qəbul edir, gah Qarabağda "humanitar ofis" açacağını həyasızcasına bəyan edir, gah Avropa İttifaqına Azərbaycanla əlaqələrə son qoymağa çağırışlar səsləndirir, gah da bir az da irəliyə getməklə ölkəmizlə təhdid dilində danışmağa cəhd göstərir. Təbii ki, bütün bunlar Azərbaycan üçün sadəcə və sadəcə sıfır həddidir və heç bir təsir imkanlarına malik deyil, heç malik olmayacaq da. Çünki bu həmin Fransadır ki, yüz illər boyunca insanlığa qarşı olmazın cinayətlər törədib. Məgər belə faktlar azdırmı? Yaxud, dünya ictimaiyyəti Fransanın uzun illər boyunca törətdiyi cinayətlərindən və həmin cinayətlərinə görə hələ də mühakimə olunmamasından bixəbərdir? Bixəbərdirsə, bir daha xatırlatma etməyin tam yeridir!

Elədirsə, başlayaq. Bu həmin Fransadır ki, 1852-ci ildə Əlcəzairin Laquat şəhərinə daxil olarkən əhalinin 3-dən birini qətlə yetirdi, bir gecədə odda yandırdı. Bu, həmin Fransadır ki, 1917-ci ildə Çadı işğala məruz qoyarkən 400 (!) müsəlman alimini məscidə toplayaraq onların başlarını kəsdi.

Bu, həmin Fransadır ki, 1960-1966-cı illər ərzində Əlcəzairdə 17 (!!!) nüvə partlayışları sınaqları keçirdi və nəticədə bugünə qədər həmin sınaqlara görə həlak olanların sayı dəqiq bəlli deyil. Orta hesabla isə ölənlərin sayı 27-100 min arasında dəyişir. Bu sınaqların ağır nəticələri müasir dövrümüzdə də hiss edilməkdədir. Fransa Əlcəzairi 1962-ci ildə tərk edərkən özündən sonra bu müsəlman torpaqlarında 11 milyon mina qoydu və həmin say bütövlükdə Əlcəzair əhalisinin sayından çox idi!

Və bu, həmin Fransadır ki, Əlcəzairi 132 (!!!) il işğalı altında saxlayıb. Fransa ordusu işğal dövrünün ilk 7 ilində 1 milyon, işğal müddətinin son 7 ilində isə 1,5 milyon müsəlman əhalini qətlə yetirib.

Fransanın tanınmış tarixçisi və insan haqları müdafiəçisi Jak Qorkinin hesablaması və gəldiyi qənaətləri isə dəhşət doğurur. Onun hesablamasına görə, ölkəsinin Əlcəzairi işğala məruz qoyduğu müddətdə - 1830-1962-ci illərdə 10 milyon insan öldürülüb. Fransa Tunisi 75, Əlcəzairi 132, Mərakeşi 44, Mavritaniyanı isə 60 il işğala məruz qoyub və bu ölkələrdə qətlə yetirilən insanların sayı ölçüyəgəlməzdir, yəni on milyonlarladır!

Nəhayət, bu həmin Fransadır ki, ordusu özünün məşhur hərbi kampaniyası zamanı Misirə daxil olarkən ordusunun əsgərləri məscidlərə atlarla daxil olub, qadınları ailələrinin, uşaqlarının gözləri qarşısında zorlayıblar, dini ibadətgahlarda alkoqollu içkilər içməklə həmin yerləri özlərinə tövlə kimi istifadə ediblər.

Və bu gün Fransa "insan haqlarından" dəm vurarkən, yaxud Azərbaycana "humanizm prinsiplərini" öz təbirincə diktə etməyə cəhd göstərərkən hər dəfə tarixi keçmişinə dönməklə öz qanlı əməllərini xatırlamalıdır. Xatırlamırsa, biz xatırlatmağa davam edərik!

# Aleksandr Jukovski:
# “Ermənistan özünə Qərbdə güclü müttəfiq axtarır"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İşğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış” istiqaməti çərçivəsində hazırlanıb.*

**Rusiyalı sosioloq: Ermənistan rəhbərliyinin siyasi iradəsinin olmaması regionun təhlükəsizliyinə və inkişafına mane olmaqla yanaşı, həm də bu cəmiyyətin sosial həyatına mənfi təsir göstərir**



Ötən 2022-ci il Rusiya, Azərbaycan və Ermənistanla bağlı ən mühüm siyasi məsələlərin həlli baxımından o qədər də məhsuldar deyil, hər üç ölkə üçün emosional il oldu. Bu sözləri Rusiyanın tanınmış sosioloqu və ictimai xadimi Aleksandr Jukovski ”Caliber” analitik mərkəzinə müsahibəsində Moskva, Bakı və İrəvanın dövlət siyasətinin ictimai-siyasi aspektlərini şərh edib. Ekspertin fikirlərini oxucularımıza təqdim edirik.





Rusiyalı sosioloqun sözlərinə görə, demək olar ki, hər 3 dövlətin başçıları ötən ilin yekunlarına əsasən, öz silahlı qüvvələrinin cəsarətini və gücünü, dövlət aparatlarının aktuallığını və effektivliyini qeyd ediblər. Əlbəttə ki, qarşıya qoyulan məqsəd və vəzifələrin yaxın gələcəkdə həyata keçirilməsi zərurəti cəhətdən.

”Məsələn, Rusiya prezidenti Vladimir Putin ölkə vətəndaşlarına Yeni il müraciətində 2022-ci ilin yekunlarından danışarkən xarici şəraiti vurğuladı: beynəlxalq qeyri-stabillik, düşmənçilik, qeyri-müəyyənlik, aqressivlik. Ordusuna və vətənpərvər vətəndaşlara olan inam və ümid, üstün sifətlər və təsirli ifadələrlə aydın şəkildə gücləndirildi. Eyni zamanda, il boyu rusların passiv ”fəaliyyəti” və xalqların və ölkələrin gələcək fikirlərindən ən yaxşısını gözləməsi daha çox nəzərə çarpırdı, bürokratik ləngimə və qeyri-müəyyənlikdən yorğunluq və ətalət görünürdü. Nəticədə hakimiyyətlə əhali arasında əks əlaqə zəifləyib və bu proses bu gün də davam edir. Beynəlxalq tarixdə və təcrübədə ölkələr yeni satış və istehlak bazarları uğrunda şiddətlə rəqabət aparıb və mübarizə apardığı halda, Rusiya aqressiv və qürurla nəinki fəth etdiyi bazarları, hətta ənənəvi mövqelərini də itirməkdə davam edir. Ölkələrin sərvətinin onların tutduqları məkanlarla deyil, rasional mütəşəkkil insanlar tərəfindən formalaşması anlayışı hələ də rus dövlət idarəçiliyi mədəniyyətinə daxil olmayıb. Bütün bunların nəticəsi olaraq Rusiyadan bir sıra ölkələrə ixtisaslı vətəndaşların əks emiqrasiyası baş verir. 1990-cı illərdə peşəkar rus kadrları orada özünü reallaşdırmaq mümkün olmadığı üçün SSRİ-nin sərhədlərini fəal şəkildə tərk etdilər. İndi, böyük ölçüdə çətinliklə də olsa, insanlar daha azad, daha dözümlü və texnoloji cəhətdən inkişaf edən bir mühitə qayıdırlar.

Öz növbəsində, Azərbaycan hökuməti ötən ilin nəticələrinə yekun vuraraq, ölkədə daxili vəziyyətin, əldə edilmiş nailiyyətlərin və birgə beynəlxalq layihələrin planlaşdırılan nəticələrinin, eləcə də xarici dövlətlərdən təzyiqi şəraitində müstəqilliyin əldə edilmiş yüksək səviyyəsinin bərqərar olmasını diqqət mərkəzində saxlayıb.

Prezident İlham Əliyevin ötən il Azərbaycan xalqına son müraciətində daxili planlara, tapşırıqlara, orduya, dinə mühüm yer ayrılıb. Mesajlar balanslaşdırılmışdı: passivlik / aktivlik, özünə, güclü tərəflərinə və tərəfdaşlarına obyektiv inam nəzərə çarpır. Yeri gəlmişkən, hazırkı beynəlxalq qruplaşmada İslam dünyası daha birləşmiş və mütəşəkkil görünür və fəaliyyət göstərir. Bunun ən gözəl nümunəsi Azərbaycan və Türkiyənin dost və qardaş birliyidir.

Ermənistana gəlincə, Rusiyada olduğu kimi burada da əlverişsiz xarici şərait ön plana çəkilir, etibarsız tərəfdaşlar üçün məzəmmətlər irəli sürülür, səbəblər və itkilər vurğulanır. Ötən ilin yekunlarına görə, ölkə getdikcə yeni, xüsusən də Avropa İttifaqında ”etibarlı” tərəfdaşlar axtarışındadır. Ermənistanın baş nazirinin müraciətinin lirik sonluğu hakim rejim adından buraxılmış səhvlərə görə bağışlanma xahişi kimi görünürdü”, - Aleksandr Jukovski hesab edir.

Rusiyalı sosioloqun fikrincə, bu mərhələdə hər üç ölkə fərqli başlanğıc nöqtələrindədir: Rusiya təhdidlər mərhələsindədir; Azərbaycan əldə olunanları müəyyən etməkdə; Ermənistan faktiki müttəfiq axtarışında.

”Aydındır ki, istənilən mürəkkəb, inkişaf edən, dinamik sistem daxili əlaqələr və sabit sərhədlərlə müəyyən edilir. Lazım gələrsə, sistem öz sərhədlərini genişləndirir və ya əlaqələri yenidən qurur. Daxili inkişaf imkanları nə qədər geniş olarsa, sistem bir o qədər sabit olar. Keçən ilin nəticələrini təhlil edərək, açıq-aşkar qənaətə gəlirəm ki, Rusiya siyasəti daxili şərtlərin zərərinə xarici şərtlərlə ”aparılıb”. Hakimiyyət özü də tarazlığı, o cümlədən sərhədlər boyu olan tarazlığı pozdu və özünü açıq-aşkar itirən vəziyyətə saldı.

Ukrayna ilə qarşılaşmada humanitar, mənəvi məsələləri istisna etsək və ilk növbədə, ölkələrin ofşorda şəxsi aktivlərini artırmaq baxımından potensialını nəzərə alaraq deyə bilərik ki, bu iki eyni oliqarx rejimin (biri digərindən pisdir) münaqişəsidir. Fərq ondadır ki, Ukraynada artıq bunu anlamağa başlayıblar və bu yanaşma inkişaf edir, dəyişir, müttəfiqlər var, Rusiya isə hələ də eynidir və artıq müttəfiqsizdir. Yeri gəlmişkən, Rusiya Federasiyasında hələ 2002-ci ildə elan edilmiş və həyata keçirilməyən dövlət idarəçiliyində faktiki islahat məsələsi ictimaiyyətə açıqlanmır.

Azərbaycan isə əksinə, daxili şəraiti optimallaşdıran SSRİ-nin simasında çoxdan öz hamisini itirmiş, özünü inamlı və güclü hiss edirdi. ”Əcdadların çağırışı” işlədi- daxili enerjinin gücünə üstünlük verildi. Prezident İlham Əliyevin Yeni il müraciətində daxili qüvvələrə arxalanmaq, tərəfdaşlarla əməkdaşlıq açıq şəkildə vurğulanıb.

İrəvan isə Nikol Paşinyanın müraciətinə əsasən, müttəfiq kimi Rusiya Federasiyasının yerinə namizədlər axtarır - onun ”suverenliyini” dəstəkləməyə hazır olan yeni ”vicdanlı” və güclü xarici tərəfdaşlar şəklində. Öz daxili inkişafını vurğulamaq, potensiala yenidən baxmaq yalnız sözdə elan olunur. Buradan aşkar görünən siyasi qərarsızlıqdır. Necə deyərlər, hara getdiyini bilənlərə ədalətli külək əsər, Ermənistanda isə hər şey qeyri-müəyyəndir. Ermənistan rəhbərliyi tərəfindən müvafiq siyasi iradənin olmaması regionun sabitliyini və təhlükəsizliyini təhlükə altına almaqla yanaşı, onun inkişafına mane olmaqla yanaşı, həm də kiçik Cənubi Qafqaz ölkəsinin gələcəyini şübhə altına alaraq, cəmiyyətin sosial həyatına mənfi təsir göstərir”- deyə A.Jukovski fikrini yekunlaşdırıb.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
11 yanvar
2023-cü il




## Ronaldoya növbəti 200 milyon avro

Səudiyyə Ərəbistanının "Əl-Nəsr" klubuna transfer olunan Kriştiano Ronaldo ölkənin DÇ-2030-a namizədliyinin səfiri olmaqla 200 milyon avro qazanacaq. Qol.az xəbər verir ki, bu barədə "France 24" məlumat yayıb. Daha əvvəl kommersiya gəlirləri nəzərə alınmaqla hücumçunun "Əl Nəsr"də illik təxminən 200 milyon avro qazanacağı bildirilirdi. Lakin bu, Ronaldonun Səudiyyə Ərəbistanında əldə edəcəyi bütün gəlirlər deyil . Ronaldo müqaviləyə əsasən 200 milyon avrodan çox qazanacaq. 37 yaşlı forvard Səudiyyə Ərəbistanının 2030-cu il dünya çempionatına namizədliyinin səfiri olacaq və bunun üçün ona daha 200 milyon avro ödəniləcək". Xatırladaq ki, Ronaldonun vətəni Portuqaliya da DÇ-2030-a ev sahibliyi etmək üçün namizəddir. Bu ölkə də İspaniya və Ukrayna ilə birgə namizədlik ərizəsini təqdim edəcək.



# Repetitora hansı hallarda müraciət etmək lazımdır?

**Repetitorluq illər əvvəl olduğu kimi, bu gün də populyardır. Müxtəlif mənbələrə görə, İngiltərədəki uşaqların təxminən dörddə biri təhsillərinin müəyyən mərhələsində repetitorluq edir. Uşaqların əksəriyyəti vacib testlər və ya məktəblərə və universitetlərə qəbul imtahanları, buraxılış imtahanları üçün repetitorlara müraciət edirlər. Buna baxmayaraq, repetitorluqla bağlı kifayət qədər tənqidlər var.**

Repetitorlara hansı hallarda müraciət etmək lazımdır?

SİA mövzu ilə bağlı araşdırma aparıbBir çox valideynlər, bahalı özəl məktəblərə kifayət qədər pul xərclədikləri halda, niyə fərdi təhsilə daha çox sərmayə qoymalı olduqlarını düşünürlər. Uşaqların hazırkı iş yükü də repetitorun dərslərini şübhə altına alır, dərslərdən əlavə idman, musiqi, dram və ya digər dərnəklərlə də məşğul olmaq lazımdır.

Bəzi mütəxəssislər düşünür ki, repetitorluq bir çox uşaqlar üçün motivasiya da ola bilər, onlara təkcə akademik cəhətdən deyil, həm də inamlarını artırmağa, uğur qazanmağa ruhlandırmağa və həddən artıq yükləndikləri zaman stress səviyyələrini azaltmağa kömək edə bilər, lakin bu, bütün uşaqlara aid deyil.

Həm müsbət, həm də



mənfi rəylərin böyük həcmini nəzərə alaraq, valideynlər üçün peşəkar mütəxəssis cəlb etmək və ya mövcud kurikulum və resurslarla kifayətlənmək qərarına gəlmək çətin ola bilər.

Bir uşağın materialının mənimsənilməsi sürətinə uyğun gəlmirsə, oxuma və yazma bacarıqları çox ləng inkişaf edirsə, bu cür problemlərin həllində repetitorlara müraciət edə bilər. Qərb məktəblərində, məsələn, uşaq zəif çıxış etdikdə, o, eyni dərəcədə aşağı akademik göstəricilərə və öyrənməyə marağı olmayan uşaqlar qrupuna düşür və onlarla ayrıca məşğul olurlar.

Azərbaycan Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyətinin (AGADMC) sədri, fəlsəfə doktoru İlqar Orucov: "Repetitorlara müraciət edən valideynlərin çoxusu bilir ki, onun uşağına dərs deyən müəllim yaxşı müəllim deyil və bu səbəbdən uşağını repetitor yanına qoymağa məcbur olurlar. Repetitorluğu nəinki şəhərdə, hətta ucqar kəndlərə belə qədər gəlib çıxıb. Ona görə də repetitor xidmətinə valideynlər bu qədər həvəs göstərirlər. Hesab edirəm ki, repetitor yanına hər yaşda getmək olar.

Hər hansı bir adam 50 yaşında da repetitor yanına gedib, biliklərini artıra və yaxud xarici dil bilikləri əldə edə bilər. Repetitorluq yaşı yoxdur, məktəb səviyyəsinə baxanda mən hesab edirəm ki, bizim məktəblər, əslində, o səviyyədə təhsil verməlidir ki, övladlarımız repetitor yanına getməsinlər.

Azərbaycanda ali təhsil müəssisələrinə qəbulu həyata keçirən qurum dövlət imtahan mərkəzidir. Dövlət imtahan mərkəzi sualları kifayət qədər çətin qoyur və repetitorluğa ayaq açan məqamlardan biri də budur.

Biz məktəb yaşlarından uşaqlarımızın nə qədər travmalar yaşadığınn fərqində olmalıyıq. Mənim də bir övladım tələbədir, xaricdə təhsil alır amma təsəvvür edin ki, uşaq məktəbdən çıxır gecə saat 9, 10-a qədər müəllimlər yanında, mərkəzləri də qalır. Hər ailə üçün də repetitor xidməti də bəlli bir maliyyə hesabına başa gəlir. Bu baxımdan düşünürəm ki, valideynlər, əslində, bu xidmətdən istifadə etməyi istəməsələr də buna haradasa məcburdular. Aşağı yaşlardan repetitor yanına getməyə, əslində, ehtiyac olmamalıdır.

O halda ki, bizim ibtidai sinif müəllimlərimiz təbii ki, hamısına bunu şamil etmək istəmirəm, amma bir xeyli hissəsi bu gün təhsil verməyə yararlı deyil. Bu, açıq şəkildə nazirliyin keçirdiyi sonuncu Sertifikasiyanın nəticələrindən də görünür. Təxminə 11 mindən çox ibtidai sinif müəllimini əhatə edən Sertifikasiyanın nəticələri göstərdi ki, 24 faiz ibtidai sinif müəllimi elementar biliklərə malik deyil. Yəni sertifikasiyadan keçə bilməyiblər. Amma mən düşünürəm, hətta nəinki 24% təxmini 50% ibtidai sinif müəllimi sertifikasiyadan keçə bilməz, çox aşağı nəticə göstərəcək.

Burada valideynlərin ən azı xeyli hissəsi ibtidai sinif səviyyəsində özü övladlarını başa salmaq savadına malikdirlər. Uşaq teatrlara, kinoya da getməlidir, dostlarına da vaxt ayırmalıdır, idmanla məşğul olmalıdır. Amma belə olanda uşaqlar səhər məktəbə, məktəbdən sonra müəllim yanına getməyə məcbur olurlar".

***Havar Şəfiyeva***

ARAŞDIRMA

## Azərbaycan vətəndaşları 70 ölkəyə vizasız gedə bilərlər

Azərbaycan "Henley & Partners Visa Restrictions Index"də 76-cı yerdə qərarlaşıb və ölkə vətəndaşları dünyanın 70 ölkəsinə vizasız gedə bilərlər. Bu barədə SİA-ya qurumun 2023-cü ilin birinci rübünə dair hesabatına istinadən xəbər verir. Bu, ötən illə müqayisədə bir ölkə çoxdur. Xatırladaq ki, 2022-ci ildə Azərbaycan bu reytinqdə 78-ci yerdə qərarlaşmışdı.

Reytinqdə ilk sıranı 193 ölkəyə vizasız getmək hüququ verən Yaponiya pasportu tutur. Sonrakı yerlərdə Sinqapur və Cənubi Koreya (192) qərarlaşıb.




## Taksi şirkətləri hava şəraitindən niyə sui-istifadə edir?




### EKSPERT İZAH ETDİ

Son günlər qarlı hava şəraiti ilə bağlı taksi qiymətlərində kəskin artım müşahidə olunur. Belə ki, normal vaxtda 3-4 AZN olan gediş haqqı indi 13-14-15 AZN-dır. Təbii ki, ünvana görə də qiymətlərdə fərq var. Bəs, qiymətlərin belə kəskin şəkildə artması nə dərəcədə doğrudur? Bu nə vaxta kimi davam edəcək? SİA mövzu ilə bağlı nəqliyyat eksperti Eldəniz Cəfərovun fikirlərini öyrənib.

Onun sözlərinə görə, taksi qiymətləri dəyişən tarifdir: "Düzdür, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin taksi fəaliyyəti ilə bağlı tələblərində tövsiyə olunan qiymətlər var. Orada orta qiymət belədir ki, taksi sifariş edərkən 1.50 AZN-dan başlayır, daha sonra gedişhaqqı orta qiymət olaraq 1 km- ə görə 50 qəpik götürülür. Lakin bu fiks qiymətlər deyil. Ümumiyyətlə, taksidə fiks qiymətlər olmur. Məsələn, günün saatlarına, iqlim şəraitinə və mövsüm xarakterinə görə qiymətlər dəyişir. Tələb artdıqca qiymət artır və tələb azaldıqca qiymət də azalır".

***Ayşən Vəli***

*Baş redaktor:*
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3600